

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Seçki Qərargahının iclası keçirilib



3

SƏS
№ 232 (6915)
19 dekabr 2023-cü il.
Qiyməti 60 qəpik

# 20 ilin uğurları söz və əməlin vəhdətində

2



# COP29: Qlobal mesaj bu dəfə Azərbaycandan veriləcək




4

## "İşğaldan azad olunan torpaqlarımızda 30 ildən sonra ilk dəfə səsvermə keçiriləcək"



12

## BOYKOT: AXCP-nin çıxış yolu...



14

## XƏBƏRDARLIQ: "Bu mənzillər 3 il ərzində satıla bilməz"



16

## Sağlamlıq ocağı, yoxsa xəstəlik mənbəyi?



13

## Ermənistana verilən TARİXİ ŞANS




7

# İnsan amilinə söykənən sosial siyasət



***Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə, dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini əhatə edir.***



Sosial sahədə atılan mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir. Ölkəmizdə son 20 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən çox yüksək qarşılanır. Dövlət tərəfindən həyata keçirilən sosialyönlü tədbirlər nəticəsində, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbat və ehtiyacları yüksək səviyyədə ödənilib.

### SOSİAL RİFAH VƏ ONUN YÜKSƏLMƏSİ ƏN VACİB VƏZİFƏLƏRDƏNDİR

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Ölkəmizdə əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur. Bu və ya digər amillər planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir.

Dövlət başçısının minimum aylıq əməkhaqqının artırılması haqqında sərəncamları, tələbələr, magistrlar və doktorantların təqaüdlərdə ciddi artım və s. insan amilinə ayrılan diqqətin bariz nümunəsidir. Göründüyü kimi, bu və ya digər sərəncamlar dövlət siyasətinin sosialyönümlüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir. Hər bir cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdən biridir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Son iyirmi ildə pensiyaçıların, təqaüdçülərin, əlillərin, şəhid ailələrinin, Milli qəhrəmanların ailələrinin, qaçqın və məcburi köçkünlərin, digər sosial kateqoriyaların sosial müdafiəsi ilə bağlı çoxlu sayda hüquqi aktların qüvvəyə minməsi bu sahədə ciddi dəyişikliyə səbəb olmuş oldu. Həmçinin əməkhaqlarının və aztəminatlı ailələrə verilən müavinətlərin artırılması sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilib. Bütün bunlarla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı da qeyd olunmalıdır.

### İQTİSADİ İNKİŞAFIN SÜRƏTLƏNMƏSİNƏ İMKAN VERƏN AMİLLƏR

Fərmana əsasən, fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi qiymətləndirilərək Mərkəzi Bankın elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına manatla ödənildi. Bu, ikitərəfli addım idi - vətəndaşla bank arasında etimad mühiti bərpa olundu, eyni zamanda, məhkəmə çəkişmələri vətəndaşın xeyrinə həll edildi.

Pandemiya dövründə sahibkarlara göstərilən dəstək dövlətin daim sahibkarların yanında olduğunun göstəricisidir. Bu tədbirlər sahibkarların iqtisadi fəallığının bərpası və artmasına, iqtisadi inkişafın sürətlənməsinə imkan verib. Pandemiya dövründə maliyyə dəstəyi almış sahibkarların sayı 132 mindən çox, ümumi ödənilmiş maliyyə vəsaitinin həcmi isə 364 mln. manata yaxın olub. Sahibkarlara həcmi 115 milyon manatdan çox olan vergi güzəşti paketi təqdim edilib. Bununla yanaşı, pandemiyanın təsirlərindən zərər çəkən sahibkarlar üçün dəyəri 1,5 milyard manat olan kredit-zəmanət və mövcud kredit portfeli üzrə faizlərin subsidiyalaşdırılması mexanizmlərini xüsusilə qeyd etmək lazımdır. Sahibkarların işinin sadələşdirilməsi, onlara dəstək mexanizminin artırılması dövlət əmlakının icarəyə verilməsi sahəsində də həyata keçirilib.

Məlumdur ki, yola salacağımız ilin ilk günlərində Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı dövlətin yeni sosial paketinin işə başladığını təsdiqləyir. İmzalanan Sənəd bir daha təsdiq edir ki, ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlir.

Sözügedən Sərəncam ölkəmizdə son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanmasını, yeni ildə yeni sosial islahat mərhələsinə keçidi təmin etmiş oldu. Sərəncama əsasən, minimum əməkhaqqı 345 manata çatdırıldı və Vahid Tarif Cədvəli üzrə əməkhaqları artırıldı. Ümumilikdə minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqı artımı 700 min nəfəri əhatə etmiş oldu.

### POSTMÜHARİBƏ DÖVRÜNDƏ SOSİAL DƏSTƏK PAKETİ 126 MİN ŞƏXSİ ƏHATƏ EDİB

Prezident İlham Əliyevin tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketinin icrası davam etdirilir. İcra olunan bu paket çərçivəsində postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranları olan 104 min şəxsə 117 min aylıq sosial ödəniş, 21,9 min şəxsə birdəfəlik ödəniş təyin olunub. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 5 600 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 374 avtomobil təqdim edilib. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 54,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 2058 şəxs 48 min reabilitasiya vasitəsi, o cümlədən 453 şəxs 472 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 20,5 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,3 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 126 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 322 min xidmət göstərilib.

Həqiqətən də, bu sosial addımlar əhali tərəfindən böyük məmnunluqla qarşılanır. Əlbəttə ki, həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Prezident İlham Əliyev, çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Ölkəmiz 2003-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövrün çağırışlarının öhdəsindən yüksək səviyyədə gəlir. Əgər bu gün Azərbaycanın qazandığı biri-birindən əhəmiyyətli uğurlarından bəhs ediriksə, gələcəkdə daha möhtəşəm uğurlardan danışacağıq. Həyat davam edir və bu davamlılıq inkişaf, tərəqqi ilə müşayiət olunanda, daha böyük ruh yüksəkliyi yaradır. Bu uğurlara yol açan əsas amil isə möhkəm təmələ əsaslanan siyasətdir.Bu gün ölkəmiz güclü iqtisadi imkanlara malik dövlətdir və Azərbaycanın iqtisadi qüdrəti, ixrac potensialı ilbəil artır və qeyri-neft sektoru inkişaf edir. Ölkəmizin təşəbbüsü ilə irimiqyaslı qlobal layihələr uğurla icra edilir. Görülən bütün bu işlərin nəticəsində isə, hər bir Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır. Bu cür sosial qərarlar davamlı xarakter alıb və bütün bunlar insanların güzəranı daha da yaxşılaşdırır. İmzalanan bu və ya digər sərəncamlar bir daha təsdiqləyir ki, Azərbaycan sosialyönümlü dövlətdir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi və yaxşılaşdırılması istiqamətində dövlət başçısı tərəfindən islahatlar davamlı olaraq reallaşır.

Aparılan islahatlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq gerçəkləşir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır.

***Zümrüd BAYRAMOVA***

# Füzuli köç karvanlarını qarşılayır



***Azərbaycan xalqının müqəddəs ənənələri, milli-mənəvi dəyərləri var. Bu dəyərlər yaşından, tutduğu mövqeyindən asılı olmayaraq, hər kəsin vətən qarşısındakı məsuliyyətini, vətəndaşlıq mövqeyini formalaşdırıb. 44 günlük Vətən müharibəsində birlik, vətənpərvərlik, torpaq sevgisi kimi ali dəyarlərə şahid olduq. Prezident İlham Əliyevin vurğuladığı kimi, «Müharibə bizim gücümüzü göstərdi, əyilməz iradəmizi göstərdi, birliyimizi göstərdi, müharibə rəmzinə, qələbə rəmzinə çevrilən dəmir yumruq öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq».***

44 günlük müharibədən xalqımız qələbə ilə çıxdı. Tariximizə Qələbə yazıldı. Bu gün artıq işğaldan azad olunan məkanlarımızda abadlıq, quruculuq işlərinə başlanılıb. İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin iştirakı milli birliyimizi bir daha nümayiş etdirir.



Ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin nümayişidir. Otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin gücləndirilməsinin mühüm dayaqlarından biridir.

### "BİZ KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRİ MÜMKÜN QƏDƏR TEZ YERLƏŞDİRMƏLİYİK"

Vətən müharibəsində qazandığımız Qələbə və sentyabrın 19-da həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü tam bərpa olundu. Bu gün ölkəmizin qarşında duran əsas vəzifələrdən biri işğaldan azad edilmiş torpaqlarımızın bərpası, inkişafıdır. "Bizim əsas dövlət xərclərimiz azad edilmiş Qarabağa və Şərqi Zəngəzura yönləndiriləcək. Birincisi, ona görə ki, biz keçmiş məcburi köçkünləri mümkün qədər tez yerləşdirməliyik. 2026-cı ilin sonunadək biz 140 min insanı yerləşdirməyi planlaşdırırıq. Bunun üçün isə biz infrastruktura, yaşayış yerlərinin inşasına və sosial infrastruktura böyük vəsait yatırmalıyıq. Bununla yanaşı, 30 il işğal altında olmuş bu ərazilərin kənd təsərrüfatı, hidroelektrik enerjisi, günəş və külək enerjisi, turizm kimi sahələrdə böyük potensialı var. Bu, dövlət investisiya proqramının əsas sahəsi olacaq", – deyə Prezident İlham Əliyev bildirib.

### FÜZULİYƏ DAHA 22 AİLƏ - 94 NƏFƏR KÖÇÜRÜLDÜ

Dekabrın 18-də respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan Füzuli şəhərinə yola salındı. Bu dəfəki bu mərhələdə Füzuli şəhərinə daha 22 ailə - 94 nəfər köçürüldü. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Xatırladaq ki, indiyədək Füzuli şəhərinə 380 ailənin, yəni 1392 nəfərin daimi məskunlaşması təmin edilib. Yola düşən əzəli sakinlər üçün bu həyatlarının gözəl gündür. Füzulidən gənc yaşında çıxan, yaxud orada heç doğulmayan insanlar üçün bu qayıdış böyük bir sevincdir və heç vaxt unudulmayacaq biq bir hissdir. Uzun illərin həsrətinə nöqtə qoyulur, yenidən qurub-yaradacaq insanların səsi bu ərazilərə yayılacaq. Xoşbəxt günlər onların gündəliyində yer alacaqdır.




### 1000-DƏN ARTIQ VƏTƏNDAŞ AKTİV MƏŞĞULLUQ TƏDBİRLƏRİ İLƏ ƏHATƏ OLUNUB

İllər sonra yenidən doğma kəndinə qədəm qoyan ailələr həsrətini çəkdikləri kəndin gözəl mənzərəsi ilə tanış olurlar. İşğaldan azad olunan ərazilərdə məskunlaşan sakinlərin məşğulluğunun təmin edilməsi istiqamətində genişmiqyaslı tədbirlər görülür. Füzuli şəhər sakini istehsal, xidmət sahəsi üzrə özünüməşğulluq proqramına cəlb edilərək lazımi avadanlıqlarla təmin olunub. Böyük Qayıdış proqramı çərçivəsində öz yurdlarına qayıdan vətəndaşlar üçün yaradılan təsərrüfatların sayı 28-ə çatıb. Ümumilikdə indiyədək Böyük Qayıdış proqramı çərçivəsində 1000-dən artıq vətəndaş aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlar müvafiq vakansiyalar üzrə işlə təmin olunub, özünüməşğulluq proqramına və peşə hazırlığı kurslarına cəlb ediliblər.

Köç karvanları işğaldan azad olunan bir neçə ərazilərə yol alır. Belə ki, bu günlərdə 25 (92 nəfər) ailədən ibarət növbəti köç karvanı yenidən qurulan Laçın rayonunun Zabux kəndinə yola salınıb. Bakı (9 ailə, 36 nəfər) və Sumqayıt ( 3 ailə, 10 nəfər) şəhərlərindən, Abşeron rayonundan (4 ailə, 16 nəfər) köçürülən ümumilikdə 16 ailə, 62 nəfər Qaradağ rayonu "Qobu Park-3" köçkün şəhərciyində məktəbin qarşısından yola düşüb. Mingəçevir şəhərində (1 ailə, 4 nəfər), Bərdə (6 ailə, 20 nəfər), Lənkəran (1 ailə, 4 nəfər) və Ağcabədi (1 ailə, 2 nəfər) rayonlarında yaşayan 9 ailə, 30 nəfər isə məskunlaşdıqları ərazidən yola salınıblar. Beləliklə, bu köç də nəzərə alınmaqla Laçın rayonunun Zabux kəndinə cəmi 146 ailə (568 nəfər) köçürülüb. Vətən müharibəsində qazandığımız Zəfərdən üç il zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib.

Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini sürətləndirir. Bütün bunlar bir daha onu göstərir ki, dövlətimiz güclüdür və siyasi iradənin gücü bütün çətinliklərə müvəffəq olur.

***Zümrüd BAYRAMOVA***

## YAP Mərkəzi Seçki Qərargahının iclası keçirilib



Dekabrın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Seçki Qərargahının ilk iclası keçirilib. İclasda 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində İlham Heydər oğlu Əliyevin namizədliyinin təsdiq edilməsi üçün tələb olunan sənədlərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54.5 maddəsinə əsasən 2023-cü il dekabrın 16-da Mərkəzi Seçki Komissiyasına təqdim edildiyi, Yeni Azərbaycan Partiyasının Tədbirlər Planında əks olunan digər əsas hərəkət və tədbirlərin də müəyyən olunmuş müddətlərdə icrasının zəruriliyi qeyd olunub.

Müzakirələrdən sonra yerli qərargahların yaradılması haqqında qərar qəbul edilib və hər bir inzibati ərazi vahidi üzrə YAP yerli seçki qərargahlarının tərkibi təsdiqlənib.




# COP29: Qlobal mesaj bu dəfə Azərbaycandan veriləcək

***COP** (Conference of the Parties; Tərəflərin Konfransı) 1995-ci ilin mart ayında Almaniyanın Berlin şəhərində BMT-nin İqlim Dəyişiklyi üzrə Çərçivə Konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış qurumdur. COP bu konvensiyanın ən üst qərarverici orqanıdır. Konvensiyaya tərəfdaş olan, onu ratifikasiya edən ölkələr COP-da təmsil olunurlar. Hazırda bu ölkələrin sayı 198-dir.*

### "0" emissiyaya nail olmaq

COP-un missiyası konvensiyadan irəli gələn tələblərin, tövsiyələrin icrasına nəzarət etməkdir. Bu tələblər, əsasən, qlobal istiləşmə tempini səngitmək, qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasına dəstək olmaq və 2050-ci ilə qədər "0" emissiyaya nail olmaqdır. Hər il keçirilən konfransa (COP) rəhbərlik və ev sahibliyi BMT-nin 5 regional qrupunu təmsil edən 198 ölkənin səsverməsi ilə seçilir. Bunlar Afrika ölkələri, Asiya ölkələri, Latın Amerikası və Karib ölkələri, Mərkəzi və Şərqi Avropa ölkələri, Qərbi Avropa və digər ölkələrdir.

COP28 adlandırılan 28-ci konfrans 2023-cü ilin 30 Noyabr-12 Dekabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilib. Konfransda dünyanın 195 ölkəsindən təxminən 97 min nəfərdən çox nümayəndə heyəti iştirak etdi. İştirakçılar əsasən dövlət rəsmiləri, özəl sektoru təmsil edənlər, alimlər, tədqiqatçılar, ekspertlər, mətbuat nümayəndələri və digər əlaqədar tərəflər olub.

### Gələn ilin noyabrında Bakıya 100 min nəfər qonaq gələcək

Növbəti, COP29 olaraq adlandırılan konfrans 2024-cü ilin 11-24 noyabr tarixlərində Bakı şəhərində keçiriləcək. Buna, COP28 konfransında iştirak edən 195-dən çox ölkənin yekdilliklə səsverməsi nəticəsində qərar verilib. Bakıda keçiriləcək COP29 konfransı çərçivəsində dünyanın təxminən 190-dan çox ölkəsini təmsil edən 80-100 min nəfərə qədər nümayəndə heyətinin qəbul edilməsi gözlənilir.

Qeyd edək ki, Azərbaycanın ən irimiqyaslı beynəlxalq tədbiri 8 min nəfərə yaxın qonağın qəbul edildiyi Avropa Oyunları olub. Məhz buna görə COP29, ölkə tarixində keçiriləcək ən böyük tədbir kimi xarakterizə olunur. Bu, həm ölkəmizin beynəlxalq arenada adının təkrar duyulması baxımından, həm də turizm potensialının artması, yerli, regional və beynəlxalq miqyasda kapitalın gözlənilməsi baxımından olduqca faydalı olacaq.

### Nazir: "Azərbaycan məsuliyyətinin fərqindədir"

COP28-in dekabrın 11–də keçirilən plenar iclasında çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev qeyd edib ki, qarşılaşdığımız problemlər kollektiv fəaliyyət, razılaşdırılmış ümumi məqsəd və istəklərə sədaqət tələb edir. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin əhəmiyyətini anlayır. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi bugünkü uğurumuzda həlledici rol oynayıb".

Muxtar Babayev çıxışında Azərbaycanı COP29-un ev sahibi ölkəsi kimi dəstəkləmək qərarına görə Şərqi Avropa Qrupu dövlətlərinə dərin minnətdarlığını ifadə edib: "Zəngin mədəni irsi və dinamik enerjisi ilə bizim ölkəmiz dünya ictimaiyyətinin dövrümüzün aktual problemlərinin həlli istiqamətində bir araya gəlməsi üçün mühüm mərhələ olacaq. Biz iqlim dəyişikliyinə qarşı əlaqələndirilmiş cavab tədbirlərinin vacibliyini dərk edir, birgə təşəbbüslər vasitəsilə təsirimizi gücləndirməyi və davamlı gələcəyə doğru irəliləyişi sürətləndirməyi hədəfləyirik".

COP28 konfransında Azərbaycanın mədəniyyətini, tarixini, təbiətini və qazandığı uğurları əks etdirən videoçarx nümayiş olunub. COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edir. Hər regional qrup öz üzvlərindən bu konfransı təşkil edəcək bir ölkənin namizədliyini irəli sürmək üçün qərar qəbul etməlidir.

### Ermənistan Azərbaycanın xeyrinə geri addım atdı

Xatırladaq ki, 2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürüb. Məlumat üçün bildirək ki, COP29 konfransının keçirilməsi üçün Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini irəli sürüb. Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürüb.

Beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib. Şübhəsiz ki, dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi ölkəmiz adına Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Həmçinin bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimiz istiqamətində ən böyük uğurdur.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

### İqlimə düşmən kəsilən dünya

Konvesiyanın ali məqsədi iqlim sisteminə insanlar tərəfindən edilən və təhlükəli hesab oluna bilən bütün müdaxilələrin qarşısını almaqdır. TSKB İqtisadi Araşdırmalar Mərkəzinin hazırladığı "Həyat dərindən bir nəfəsdir" başlıqlı hesabatda dünya üzrə 300 milyon uşağın maksimum səviyyədən 6 dəfə çox hava çirkliliyinə məruz qaldığını deyir. ÜST-ün açıqlamasına görə isə hər il dünyada 7 milyondan çox insan çirklənmiş hava səbəbindən erkən ölür. Bildirilir ki, qapalı və açıq məkanlarda yaranan çirkli hava insanlarda müxtəlif xəstəliklərə səbəb olaraq ömrünü qısaldır. Havadakı qaz, his, ozon və metan nisbətindəki dəyişikliklər, sadəcə, iqlim dəyişikliyinə səbəb olmur, eyni zamanda, hər il milyonların ölümünə rəvac verir.

Açıq mühitdəki çirkli hava hər il 3.7 milyon, evlərdə və ya ofislərdəki çirkli hava isə hər il 4.3 milyon insanı erkən öldürür. Araşdırmalara görə, dünyada ekologiyanın çirklənməsinə 42 faiz insanlar, 30 faiz sənaye tullantıları, 14 faiz nəqliyyat vasitələri və 14 faiz isə digər səbəblər yol açır. ÜST hesab edir ki, ekologiyanın çirklənməsinin qarşısı alındığı təqdirdə 2050-ci ilə qədər hər il 3-5 milyon insanın erkən ölümünün qarşısı alına bilər.

Dünya miqyasında mövcud problemlərdən ən böyüyü ətraf mühitin davamlı üzvi çirkləndiricilər və ağır metallarla çirklənməsinin minimuma endirilməsidir ki, bu ölkəmiz üçün də olduqca aktual və həlli vacib problemlərdəndir. Bu növ çirklənmənin əsas mənbələri neft emalı, neft-kimya, kimya, energetika, tikinti materialları istehsalı, avtonəqliyyat, kənd təsərrüfatında pestisidlərin tətbiqi və tullantıların yandırılması kimi proseslərdir ki, bu mənbələrdən ətraf mühitə dioksinlər, furanlar, bifenil və ağır metallar atılır. Xüsusilə istixana qazların təhlükəsi barədə ölkəmiz olduqca məlumatlıdır və bu təhlükənin azaldılması istiqamətində işlər görülür.

### Azərbaycan iqlimin dostu olmaq yolundadır

Hazırda Azərbaycanda əsas ekoloji problemlər su ehtiyatlarının çirkləndirilməsi, sənaye müəssisələri və avtonəqliyyatın atmosferi çirkləndirməsi, kənd təsərrüfatı üçün yararlı torpaqların sıradan çıxması, tullantıların tələb olunan səviyyədə idarə olunmaması, biomüxtəlifliyin qorunmaması, meşələrin, flora və faunanın qorunmamasıdır.

Təxmini hesablamalara görə, Azərbaycanda hər il sənaye müəssisələri və avtomobil nəqliyyatı tərəfindən atmosfer havasına 1 milyon tondan artıq zərərli maddələr atılır. Bunun yarısı sənaye müəssisələrinin, digər yarısı isə avtonəqliyyat vasitələrinin payına düşür. Bakı şəhərinin atmosfer havasına yarım milyon tondan artıq zərərli maddələr atılır. Bu tullantıların təxminən 30 faizi sənaye müəssisələrinin, 70 faizi isə avtonəqliyyat vasitələrinin payına düşür. Atmosfer havasını çirkləndirən əsas mənbələr neftçıxarma, neft emalı, neft-kimya və energetika müəssisələri və avtonəqliyyatdır.

Lakin ölkəmizdə alternativ enerjidən istifadə yolunda ciddi addımlar atılır. Günəş və külək alternativlərindən, habelə su vasitəsi ilə enerji almaq üsullardan istifadə edilir. Bu istiqamətdə həyata keçirilən işlər zamanla sürətlənir, tətbiq sahələri genişləndirilir.

Doğrudur, ötən ilin sonu Avropa Ətraf Mühit Agentliyi (EEA) Avropada havanın çirklənməsi səbəbindən baş verən ölümlərin 10 faiz azaldığını, lakin buna baxmayaraq yüz minlərlə insanın çirkli hava səbəbindən həyatını itirdiyini açıqlamışdı. Amma agentlik hesab edir ki, 2030-cu ilə qədər havadakı zərərli maddələri zərərsizləşdirmənin bir yolu tapılmalı, çirkli havadan ölüm nisbəti 55 faiz azaldılmalıdır. Bildirilir ki, havanın çirklənməsi cari templə azalmağa davam etməsə və əlavə tədbirlər görülməsə vəziyyət olduqca təhlükəli hal alacaq.

**Lalə Mehralı**

# Ali Baş Komandan Ermənistan qarşısında şərt qoydu



TƏHLİL

***Bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər.***

*İLHAM ƏLİYEV: "Ermənistan nə bu gün, nə də gələcəkdə ərazi bütövlüyümüzü sual altına qoymasın və Azərbaycana qarşı hər hansı ərazi iddialarından tam əl çəksin"*

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı regionda proseslərin yenə də bizim təkliflərimiz əsasında cərəyan etdiyini diqqətə çatdıraraq müharibədən sonrakı ilk aylarda Ermənistanın havadarlarının köhnə tezisləri qəbul etdirməyə çalışdıqlarını bildirərək demişdir: «Biz isə bunu qətiyyətlə rədd etdik. Bu gün hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: "Qarabağ Azərbaycandır!" Yəni, bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir».

Qalib Komandan kimi Azərbaycvn Prezidenti İlham Əliyev hər zaman açıqlamalarında bildirir ki, sülhün qorunması, sabitliyin möhkəmləndirilməsi, dinc birgə yaşayışın təmin edilməsi, barışıq gündəliyinin irəli sürülməsi regionda əməkdaşlığa və iqtisadi inkişafa sərmayə qouluşu üsün real zəmin yaratmış olacaq. Və Ermənistan sülh müqaviləsinin yeganə çıxış yolu olduğun anlayır.

Prezident İlham Əliyevin "Euronews" televiziyasında yayımlanan müsahibəsində Ermənistanla Azərbaycan arasında sülh prosesi ilə bağlı Azərbaycanın mövqeyini bir daha konkret olaraq ifadə edib: "II Qarabağ müharibəsində əldə olunan qələbədən sonra yeni reallıq yaranıb. Azərbaycan şərtləri diktə edən tərəfdir. Buna baxmayaraq, dövlətimiz sühpərvər və humanist mövqe nümayiş etdirərək və sülh prosesində təşəbbüskar tərəf kimi çıxış edir. Sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklif verən ölkə Azərbaycandır. Qarabağ məsələsi bitib. Azərbaycan öz suverenliyini bərpa edib. Qarabağda separatçı rejimin ləğv edilməsi fonunda sülh müstəvisinə heç bir əngəl qalmayıb. Ölkəmiz sülh sazişi üçün əsas götürüləcək beş təməl prinsip üzrə razılaşmanın əldə edilməsində maraqlıdır. Bunlar bir-birinin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması, gücdən istifadə etməmə, bir-birinə ərazi iddialarının olmaması, iki ölkə arasında kommunikasiyaların açılması və münasibətlərin normallaşması kimi vacib prinsipləri əhatə edir. Sözsüz ki, bu təkliflər beynəlxalq hüquqa əsaslanır".

Ölkəmizin başçısı Ermənistanda azərbaycanlıların sayı məsələsini də xüsusilə vurğuladığını bildirib. Qeyd edib ki, hazırda Ermənistanda və Azərbaycanda analoji olaraq azərbaycanlıların və ermənilərin sayı ilə bağlı konkret faktlar mövcuddur: «Əgər rəsmi İrəvan Azərbaycanda erməni azlığı məsələsini əks etdirmək istəyirsə, otuz il əvvəl Ermənistandan qovulmuş azərbaycanlı azlığın məsələsi bu müstəvidə qaldırıla bilər. Çünki ölkəmiz iki milli azlığın məsələsini, onların hüquqları və təhlükəsizliyini, o cümlədən qayıtmaq hüququnu qeyd edir. Yəni, təkcə ermənilərin Azərbaycana qayıtması deyil, o cümlədən azərbaycanlıların Ermənistana qayıtması məsələsi mövcuddur. Bu mənada Azərbaycanlıların 30 il əvvəl qovulması və ermənilərin iki ay əvvəl ölkəmizi tərk etmək qərarı arasında fərqin əhəmiyyəti birmənalı olaraq qalır».

## QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ: ƏLİYEV İRƏVANA ŞƏRT QOYDU

Prezident İlham Əliyev "Euronews"a müsahibəsində bildirdi ki, ermənilərin Azərbaycana qayıdışı azərbaycanlıların Ermənistana qayıdışı ilə eynilik təşkil edir. Qarabağda erməni separatizminin ləğvindən sonra Ermənistanın erməni əhalisini kütləvi şəkildə bölgəni tərk etməyə sövq etməsinin arxasındakı hədəflərdən biri də budur: erməni əhalisi Qarabağda Azərbaycan vətəndaşı olaraq yaşayacaqdı, onların hüquqları təmin olunacaqdı və bu, İrəvanın da azərbaycanlıların Qərbi Azərbaycana qayıdışını təmin etməsinin vacibliyini aktuallaşdıracaqdı; İrəvan erməniləri Qarabağdan çıxarmaqla bu məsələdən yayınır, eyni zamanda, artıq Ermənistanda olan "Qarabağın erməni əhalisindən" Bakının azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı tələbindən imtina etməsinə qarşı kart kimi istifadə edəcək. Hərçənd, azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı məsələsi sülh danışıqlarında həll edilməsə belə, rəsmi Bakı üçün prioritet istiqamətlərdən biri olaraq qalacaq. Çünki "Qarabağın erməni əhalisi"ndən fərqli olaraq, Qərbi azərbaycanlılar beynəlxalq hüquqa uyğun olaraq, qaçqın sayılır və Ermənistan ərazisində mülkiyyət haqları var.

Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində Ermənistan ilə Azərbaycan arasında sülhə nail olunması ilə bağlı sualı da cavablandırıb. Dövlətimizin başçısı bu barədə danışarkən deyib: «Vaxt qrafiki ilə bağlı mən nikbin fikirdə idim, çünki biz Azərbaycanın özünün hazırladığı sülh sazişinin ilkin layihəsi ilə bağlı şərhləri bir neçə dəfə Ermənistanla mübadilə etmişdik. Bundan sonra isə iki ölkə arasında altı dəfə şərhlər mübadilə edilib və keçən dəfə "Euronews"a bunun haqqında danışdıqda mən ümid edirdim ki, Ermənistan bizim təkliflərin nəzərdən keçirilməsi vaxtını uzatmayacaq. Biz sentyabrın 11-də onlara sonuncu şərhlərimizi təqdim etmişdik və onlardan cavabı yalnız iki gün əvvəl almışıq. Beləliklə, təqribən iki ay yarımdır ki, onlar bir neçə səhifədən ibarət mətn layihəsini nəzərdən keçiriblər. Bu, nə deməkdir? O deməkdir ki, onlar süni olaraq prosesi ləngitmək istəyirlər. İndi noyabrın sonudur və ilin axırına qədər sülh sazişinin imzalanması ilə bağlı ümidlər o qədər də nikbin deyil. Lakin hesab edirəm ki, zaman qrafiki o qədər də vacib deyil. Vacib olan hər iki ölkənin gündəliyidir. Məhz Azərbaycan işğaldan və etnik təmizləmədən əziyyət çəkib. Bir milyon azərbaycanlı Ermənistan hökuməti tərəfindən deportasiya edilib. Təxminən sahəsi 15 min kvadrat kilometr olan ərazi dağıdılıb».

Bununla belə, sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklifi Azərbaycanın verdiyini vurğulayan Prezident İlham Əliyev qeyd edib: «Hazırda Qarabağ məsələsi bitdikdən sonra düşünürəm ki, Ermənistan bizimlə razılığa gəlməkdə daha həvəsli olacaq. Çünki suverenliyimizin bərpası və Qarabağda qeyri-qanuni separatçı rejimin ləğv edilməsi ilə, fikrimcə, Ermənistana daha cəsarətli davranmağa və ya danışıqlara getməyə mane olan əsas amil artıq mövcud deyil.

## AZƏRBAYCAN MÜSTƏQİL XARİCİ VƏ DAXİLİ SİYASƏTƏ MALİK ÖLKƏDİR VƏ BU SİYASƏTİ MİLLİ MARAQLARA ƏSASLANARAQ YÜRÜDÜR

Bu gün Azərbaycan bütün dünyada sülhsevər ölkə olaraq tanınır. Və erməni havadarları istisna olmaqla bütün dünya İkinci Qarabağ müharibəsinin Azərbaycanın öz ərazi bütövlüyü uğrunda apardığı haqq savaşı olduğunu qəbul edir. Prezident İlham Əliyevin "Azərbaycan müstəqil xarici və daxili siyasətə malik ölkədir və bu siyasəti milli maraqlara əsaslanaraq yürüdür" fikri böyük maraqla qarşılanıb. Əsas amillərdən biri ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməməklə dövləti mənfi xarici təsirdən və daxili işlərə müdaxilədən qorumaqdır. Belə hallar Azərbaycan dövlətini mövqeyindən çəkindirə bilməz. Çünki ölkənin inkişafı düşünülmüş şəkildə aparılır. Hətta işğal dövründə iqtisadiyyatımız inkişaf edib. İndi isə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etmişik. Və bu gün sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklif verən ölkə Azərbaycandır. Suverenliyimizin bərpası və Qarabağda qeyri-qanuni separatçı rejimin ləğv edilməsindən sonra Ermənistan daha cəsarətli davranmalıdır. Çünki danışıqlara getməyə mane olan əsas amil artıq mövcud deyil.

Bütün bunlarla yanaşı, qalib ölkənin öz düşməninə sülh təklif etməsi də görünməmiş hadisədir. Lakin bütün bunların fonunda qarşı tərəfin Azərbaycanın bu humanist addımını qiymətləndirməməsi yalnız onun sülh tərəfdarı olmadığının, əmin-amanlığı, təhlükəsizliyi təhdid etdiyinin göstəricisidir. Eyni zamanda, Azərbaycan yeganə ölkədir ki, qalib ölkə olsa da, düşməninə sülh təklif edir, regionda əmin-amanlığın, təhlükəsizliyin bərqərar olmasına çalışır. Sülh müqaviləsi imzalanacaqsa bu yalnız Azərbaycanın təklif etdiyi 5 baza prinsipi əsasında imzalanacaq. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, bizim sülh istədiyimiz ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik.

Bir sözlə, dövlət başçımızın söylədiyi kimi: «Sülh üçün alternativ yoxdur. Əgər sülh sazişi imzalanmasa, bu, bütöv bölgə üçün çox pis olacaq. Biz istəyirik ki, Cənubi Qafqaz bölgəsində hər hansı risk olmasın. Əlbəttə, biz istəyirik ki, Ermənistan nə bu gün, nə də gələcəkdə ərazi bütövlüyümüzü sual altına qoymasın və Azərbaycana qarşı hər hansı ərazi iddialarından tam əl çəksin!".

***RƏFİQƏ KAMALQIZI***




# Pakistandan türk aviasiyasına qanad

## Ankara Amerikanın qanadlı atlarına NATO xaricində əvəz axtarır

***Türkiyə Çin-Pakistan dördüncü nəsil JF-17 Thunder qırıcılarını almağa cəhd edə bilər. Bu, ABŞ-ın Türkiyənin Hərbi Hava Qüvvələrinin əsasını təşkil edən F-16-ların çatdırılmasını təsdiqləməkdə qeyri-müəyyənliyi ilə bağlıdır. Bunun la yanaşı, Almaniya da danışıqlarda maraqlı və qadir olmadığını nümayiş etdirir. Ankaranın F-16-ya Avropa alternativi - çoxməqsədli "Eurofighter Typhoon"-u alması onun qərarından asılıdır. Ekspertlərin fikrincə, vəziyyət Qəzza zolağı ətrafındakı siyasi vəziyyətlə mürəkkəbləşib. "EurAsian Times" yazır ki, yeni "JF-17" təyyarəsi Türkiyənin təyyarə donanması üçün əsas dəstək ola bilər.***



Nəşrin hesablamalarına görə, bu alternativin seçilməsinə səbəb oxşar parametrlərə malik qırıcıların tədarükçüləri ilə danışıqlarda irəliləyişin olmamasıdır. Eyni fərziyyələr türkdilli mətbuatda da yayılır ki, bu satınalma NATO sistemlərinin uyğunluğu ilə bağlı problemlər səbəbindən iki NATO müttəfiqi - Ankara və Vaşinqton arasında münasibətləri gərginləşdirən amilə çevrilə bilər.

"JF-17" qırıcısı Çinin "Chengdu FC-1" təyyarəsi əsasında Pekin və İslamabadın birgə istehsalıdır. "JF-17" layihəsi 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində Pakistanın maliyyə dəstəyi ilə Çinin "Chengdu Aircraft Corporation" şirkəti tərəfindən yaradılıb. "JF-17"-nin birgə seriyalı istehsalı 2009-cu ildən qurulub. "EurAsian Times" fərz edir ki, Türkiyə Çin-Pakistan imkanlarından yararlanmağa qərar verərsə, "JF-17" onun getdikcə köhnəlməkdə olan və modernləşdirməyə ehtiyacı olan F-16 donanmasının uyğun əvəzi ola bilər. Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələri terrorla mübarizə əməliyyatları üçün dəfələrlə "JF-17"-dən istifadə edib. Çin-Pakistan qırıcısının imkanlarına maraq göstərənlər arasında Malayziya, Nigeriya, Azərbaycan, Myanma və Argentina da olub. İraq tərəfi bu il də "JF-17"-ni Amerikanın dördüncü nəsil qırıcılarına yaxşı alternativ hesab edənlərə qoşulmağa hazır olduğunu nümayiş etdirib.

Türkiyə üçün əsas problem ABŞ-ın yeni F-16-ların tədarükünü təsdiqləmək istəməməsidir. Əgər əvvəllər Ankaranın hava qüvvələrinin modernləşdirilməsi ilə bağlı sövdələşmələrində əsas valyuta İsveçin NATO-ya sərbəst buraxılmaq istəməməsi idisə, indi bu proses Qəzza zolağı ətrafında yaranmış vəziyyətlə mürəkkəbləşib: Prezident Rəcəb Tayyib Ərdoğan təkcə tənqid etməklə kifayətlənməyərək Fələstini qəti şəkildə dəstəklədi, İsraili isə bütün Qərb dünyası. Üst-üstə düşməyən siyasi məsələlərin bir-biri ilə əlaqəli olması yüksək rəhbərliyin bəyanatlarından belə çıxır. "Siz F-16 məsələsi Konqresdə həll edildikdən sonra addım atacağınızı deyirsiniz" deyən Ərdoğan bu ay ABŞ rəhbərliyinə qiyabi müraciət edərək deyib. "Və mənim parlamentim var və ratifikasiya protokolu parlamentimdən keçməyincə oxşar addım ata bilmərəm. Əgər biz NATO-da tərəfdaş ölkələriksə, gəlin həmrəylik əlaməti olaraq hər şeyi eyni vaxtda edək. Parlamentimiz düzgün qərar verəcək".

Ankara satınalma kanalları baxımından fərqli seçimlərə malik olduğunu qeyd edir. Respublikanın Milli Müdafiə naziri Yaşar Gülər bir müddət əvvəl ölkəsinin 40 "Eurofighter" qırıcısı ala biləcəyini qeyd etmişdi. Bu, bir neçə Avropa dövlətinin birgə layihəsidir. "Həm Böyük Britaniya, həm də İspaniya "hə" dedi və indi Almaniyanı razı salmağa çalışırlar", - müdafiə nazirliyinin rəhbəri xatırladıb: "Bununla belə, Berlin indiyədək əzmkarlıq nümayiş etdirir".

Öz növbəsində, Ərdoğan Ankaranın qırıcı təyyarələrə marağının təkcə "Eurofighter" ilə məhdudlaşmadığına diqqət çəkib. "Almaniya dünyada hərbi təyyarələr istehsal edən yeganə ölkədirmi? Bir çox dövlətlər bunun üzərində işləyir. Hazırda Türkiyə pilotsuz uçuş aparatları ilə mübarizədə aparıcı ölkələrdən biridir", - deyə Türkiyə dövlətinin başçısı milli müdafiə sənayesinin inkişaf tempinə toxunaraq bildirib.

Bununla belə, skeptiklər iddia edirlər ki, Türkiyə tərəfi tələb olunan döyüş təyyarəsinin öz versiyasını hələ təqdim edə bilmir: istehsalçılara bir az daha vaxt lazımdır. Ekspertlər isə təsdiq edirlər ki, Qəzzada mövcud vəziyyət müdafiə sənayesində tərəfdaş axtarışını çətinləşdirib. Moşe Dayan Yaxın Şərq və Afrika Araşdırmaları Mərkəzinin (Təl-Əviv Universiteti) himayəsi altında nəşr olunan "Turkishcope" jurnalının araşdırmasında deyilir: "Türkiyə Qəzzadakı müharibənin mümkün diplomatik və iqtisadi nəticələrindən narahatdır. Qəzza müharibəsinin fəsadları Fars körfəzi regionundan Şimali Afrika dövlətlərinə qədər hiss olunub və Türkiyənin xarici kapital, investisiya və ticarət müqavilələri istəyi böyük ölçüdə son iki ildə əldə edilmiş bir sıra regional diplomatik irəliləyişlərdən asılıdır".

Tədqiqatçılar hesab edirlər ki, Türkiyənin xarici siyasəti İsrail və HƏMAS arasında silahlı münaqişənin dalğalanma effektinə məruz qalır. "Qəzza müharibəsi şübhəsiz ki, əksər ərəb paytaxtları üçün çox ciddi siyasi sınaqdır, Ankara bu yeni formalaşmış diplomatik mənzərəyə dəyə biləcək mümkün zərərin miqyasından narahatdır" deyə ekspertlər yekunlaşdırırlar.

**V.VƏLİYEV**

RAKURS



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Bölgədə sülh və təhlükəsizlik üçün ən etibarlı təminat - Azərbaycan!

***Artıq üç ildən çoxdur ki, 44 günlük Zəfər müharibəsi ilə Azərbaycan 30 illik erməni işğalına son qoydu, öz ərazi bütövlüyünü və dövlət suverenliyini təmin etdi. Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli sərkərdə kimi yürütdüyü əzmkar siyasət və igid oğullarımızın dillərə dastan olan qəhrəmanlığı sayəsində bu gün Azərbaycan doğma Qarabağa, Laçına, Şuşaya, Xankəndiyə qovuşdu. Artıq doğma-yurd yuvalarına qayıdan insanlar, dinc quruculuq üçün çalışırlar. İndi sülh zamanıdır. Azərbaycan və Ermənistan arasında bağlanacaq sülh müqaviləsi!***

Bəs nədən Azərbaycanın sülh təşəbbüslərinə rəğmən acı məğlubiyyətə uğrayan, sosial böhranla çapalayan Ermənistan sülh müqaviləsini ləngidir?

İlk növbədə ona görə ki, Fransa prezidenti Emmanuel Makron başda olmaqla bir sıra qərb dairələri, - bura "Sülh Fondu"nun əli ilə Ermənistanı silahlandırmağa qərar verən Avropa İttifaqı da daxildir - var gücləri ilə bölgədə sülhün və iqtisadi dirçəlişin baş verməməsi üçün çalışırlar. Görün situasiya nə eybəcər hal alıb ki, Aİ "Sülh fondu"nun əli ilə Ermənistanı silahlandırmaq kimi həyasızlığa əl atır. Amma anlamadıqları və dərk edə bilmədikləri bir fakt ortadadır: Cənubi Qafqazda təhlükəsizliyi və sülhü təmin edəcək yeganə güc Azərbaycandır. Regionun lider ölkəsi olan Azərbaycan bölgənin inkişafı, tərəqqisi, gələcəyi naminə Ermənistan ilə normallaşmaya tez bir zamanda nail olunması üçün bütün mümkün addımları atır, əməli fəaliyyət göstərir.

Hətta Azərbaycan ilə Ermənistan arasında barış əldə olunması üçün kənar vasitəçilərə belə lüzum görməyən Bakı ikitərəfli görüşlərin sülhə gətirib çıxaracağını əminliklə bildirir və bu fikri müdafiə edir. Lakin Azərbaycanın siyasi, diplomatik müstəvidə sülh istiqamətində atdığı addımlara qarşı tərəf nəinki adekvat cavab verir, əksinə, sülhdən yayınmaq üçün hər cür siyasi, hərbi təxribatlara əl atır. Sözsüz ki, qərbdəki "ağıl mərkəzləri"nin təhriki ilə!

Dünyaşöhrətli yazıçı Viktor Hüqo yazır ki, "sülh sivilizasiyanın fəziləti, müharibə isə onun cinayətidir". Təbii ki, bölgəmizdə sülhün yaranması, ilk növbədə, bizim istəyimizdir. Cənubi Qafqazın son 30 il tarixinə diqqət yetirmək kifayətdir ki, Qafqazda kimin fəzilətli, kimin isə cinayətkar dövlət olması aydın olsun. Azərbaycan daima bütün mübahisə və münaqişələrin dinc yolla həll edilməsinin tərəfdarı olub. 44 günlük Vətən müharibəsində misilsiz qələbə qazanmaqla yanaşı, sülh təklif edən tərəf məhz Azərbaycan olub.

Otuz ildir işğala, dağıntılara, etnik təmizləməyə, soyqırımına məruz qalan və ərazisinin tamamilə dağıdılmasından əziyyət çəkən bir ölkə torpaqlarını beynəlxalq vasitəçilər olmadan məhz özü azad etdikdən dərhal sonra özü sülh təklif edib. Azərbaycan hər zaman konstruktiv mövqelərdən çıxış edib. Azərbaycan tərəfi bildirib ki, sülh sazişi imzalamalıyıq və delimitasiya ilə bağlı komissiyalarımız olmalıdır. Ermənistan deyil, Brüssel deyil, Vaşinqton, Paris və ya Moskva deyil, bunu deyən edən Azərbaycan olub.

Azərbaycanın bölgədə sülh və təhlükəsizlik üçün olduqca istəkli və etibarlı tərəf olduğunu göstərən daha bir fakt barədə danışaq. Elə bir fakt ki, hətta adı sülh əvəzinə qanlı ssenarilər üçün hallanan əksər qərb siyasətçilərinin alqışladıqları hadisədən danışıram. Hamıya bəlli olduğu kimi, bu yaxınlarda Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə olunub. Bu hadisənin özünü dayanıqlı sülhün əldə olunması istiqamətində atılmış ciddi addım kimi qiymətləndirmək olar. Cənab Prezidentin davamlı mesajlarından sonra Ermənistanın kənar müdaxilələrdən qismən də olsa qurtularaq, müstəqil mövqe nümayiş etdirməsini regionun gələcək inkişafı üçün atılmış müsbət addım kimi qiymətləndirmək olar.

Uzun müddətdən sonra Ermənistanın Azərbaycan tərəfindən dayanıqlı sülhün əldə olunması istiqamətində atılan addımlara adekvat cavab verməsi qarşılıqlı etimad mühitinin yarana biləcəyinə olan inamı qüvvətləndirir. Amma.. amma Fransa, Aİ, bir sıra ermənipərəst qüvvələrin Ermənistanı fitnə-fəsada sürükləməsi baş verməsə. İnanmaq istəyirik ki, ayıq-sayıq, konstruktiv düşünən erməni ictimai rəyinin mövqeyi daha güclü olacaq və qisas faşizminə sarılanları üstələyərək iki ölkə arasında sülhün bərqərar olmasına, bölgədə əmin-amanlığın, iqtisadi tərəfdaşlığın formalaşmasına dəstək olacaqlar. Biz sülhdən yanayıq, əksini düşünənlər üçün isə DƏMİR YUMRUQ hər an hazırdır!

**_Regionda davamlı sülh və təhlükəsizliyin təminatı üçün Bakı və Ankaranın rolunu etiraf etməmək mümkün deyil. Cənubi Qafqazda uzunmüddətli sabitliyin və təhlükəsizliyin bərqərar edilməsində, Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması məsələsində hər iki ölkənin uğurlu birgə fəaliyyəti göz önündədir._**




# Ermənistana verilən TARİXİ ŞANS

Türkiyənin xarici işlər naziri Hakan Fidanın Azərbaycana səfəri Cənubi Qafqazda bir çox məsələlərin həlli üçün böyük töhfə belə hesab oluna bilər. Ələlxüsus da region ölkələri arasında münasibətlərin normallaşdırılması baxımından bu səfərin olduqca böyük əhəmiyyət kəsb etdiyi qənaətinə gəlməkdə hər kəs haqlıdır. Uzunmüddətli sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində birgə müzakirələr bütövlükdə region ölkələri üçün böyük uğurlar vəd edir və rəsmi İrəvanın bu reallığı düzgün qiymətləndirəcəyi təqdirdə nikbin proqnozlar barədə cəsarətlə danışa bilərik.

Nəzərdən qaçırmaq lazım deyil ki, ABŞ-da danışıqlardan dərhal sonra Hakan Fidan Bakıya gəlib. Doğrudur, Türkiyə Xarici İşlər Nazirliyinin rəhbəri təyin edildikdən sonra o artıq üçüncü dəfədir ki, Azərbaycana səfər edir. Amma bu səfər heç də əvvəlki səfərlərlə müqaisə edilə bilməz. Vaşinqtonda danışıqlarının gündəmində əsas məsələnin Cənubi Qafqazdakı vəziyyət və Ermənistan-Azərbaycan sülh prosesinin də müzakirə olunduğu nəzərə alındıqda tam əmin ola bilərik ki, Türkiyə XİN rəhbərinin ölkəmizə budəfəki səfəri daha böyük nəticələr və uğurlar vəd edir. Heç şübhəsiz ki, Vaşinqtona səfərinin ardınca türkiyəli nazirin məhz Amerikada keçirilən görüşlərin nəticələrini Azərbaycan rəhbərliyi ilə müzakirə etmək üçün dərhal Bakıya gəldiyi zərrə qədər şübhə doğura bilməz. Çünki Türkiyə Azərbaycanın ən yaxın müttəfiqidir. Ona görə ki, Türkiyə bizim üçün qardaş ölkədir və həm də ona görə ki, Türkiyə özü də regionda münasibətlərin tənzimlənməsində, davamlı sülhün, təhlükəsizliyin, sabitliyin təminatında maraqlıdır.

Diqqətə çatdıraq ki, ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib. Bunun da səbəbsiz olmadığı heç bir şübhə doğura bilməz və bu görüşün regionda davamlı sülh və təhlükəsizliyin təminatı üçün xüsusilə əhəmiyyətli olması da tam məntiqidir. Təsadüfi deyil ki, Hakan Fidan azərbaycanlı həmkarı Ceyhun Bayramov ilə də görüşüb. Bu görüş, ələlxüsus da Azərbaycanın XİN rəhbəri ilə birgə keçirilən brifinqdə qeyd olunanlar da diqqətdən yayınan məqamlar deyil. Azərbaycan və Ermənistan arasında sülhə nail olmaq üçün tarixi fürsət yarandığını qeyd edən Türkiyə XİN rəhbəri xüsusilə vurğulayıb ki, bu fürsəti əldən vermək olmaz. Bu, əslində tam yerinə düşən bir mesaj olaraq qəbul olunmaqdadır. Həmin mesaj təkcə Ermənistan, yaxud, region ölkələri yox, eyni zamanda, regionla bağlı məsələlərdə iştirak edənlərin də diqqətindən qətiyyən yayınan deyil.

Xüsusilə vurğulamaq lazımdır ki, Hakan Fidanın mesajı Bakı və Ankaranın yaxın gələcəkdə regionda sülhün bərqərar olmasında eyni dərəcədə maraqlı olduğunu təsdiqləyir. Bu isə o deməkdir ki, erməni diasporunun və bir sıra ölkələrin məhz Ermənistanı qızışdırmaq üçün apardığı fəaliyyətə qarşı eyni dərəcədə yanaşılacaq. "Bəzi ölkələrin təxribatçı addımlarla bölgədəki sülh prosesinə necə mənfi təsir göstərməyə çalışdıqlarını görürük", deyə Türkiyənin XİN rəhbəri bildirib və heç şübhəsiz ki, bu zaman onun mesajı Parisin timsalında, regionda münaqişəni qızışdırmaq istəyən tərəflərə ünvanlanıb. Bu fikrinin ardınca Türkiyəli diplomaq hətta, üçüncü ölkələrin prosesi yanlış istiqamətə yönəltmək cəhdlərinə qarşı bütün imkanlardan istifadə etdiyini, sülhə nail olmaq üçün mümkün olan hər şey edildiyini və buna hazır olduğunu tam açıq şəkildə bildirib.

Ermənistan-Türkiyə nizamlanmasına da toxunan qardaş ölkənin diplomatı, öz fikirlərini açıqladığı zaman bu istiqamətdə də bir sıra məsələlərə aydınlıq gətirib. O, xüsusilə bəyan edib ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması Türkiyə ilə Ermənistan arasında əlaqələrin qurulmasına zəmin yaradacaq. Bu çox önəmli bir mesajdır. Məhz rəsmi İrəvana ünvanlanan mesaj olaraq qəbul etməkdə yanılmayacağımıza əminik. Əslində, Ermənistan bununla tərəfinə bildirilir ki, Türkiyə ilə münasibətlərinin nizamlanması məhz Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasıdan keçir. Bir sözlə, Ermənistan tərəfinə mesaj verilir ki, əgər rəsmi İrəvan Türkiyə ilə münasibətləri normallaşdırmaqda maraqlıdırsa, ilk növbədə Azərbaycanla münasibətlərinə aydınlıq gətirməli, həmin münasibətləri normallaşdırmalıdır. Sözsüz ki, bu mesaj Ermənistana tam vaxtında verilən mesajdır və hətta bu gün Türkiyə ilə münasibətlərini normallaşdırmaq istəyən İrəvan üçün bir neçə istiqamətdə yaranan tarixi şans deməkdir. Yaxın vaxtlarda Ermənistan-Türkiyə sərhədinin üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün açılması ilə bağlı xəbərlər eşitməyə ümid etdiyini, İrəvanda ATƏT Parlament Assambleyasının payız sessiyasının açılışında qeyd edən erməni baş nazir Nikol Paşinyan və onun hakimiyyət komandası çox güman ki, haqqında bəhs olunan həmin o tarixi şansı düzgün qiymətləndirə biləcək.

Heç şübhəsiz ki, Türkiyə ilə münasibətlərin nizamlanmasının strateji baxımdan Ermənistan üçün nə demək olduğunu, daha dəqəq desək, çox vacib sayıldığını nəinki həmin ölkənin mövcud hakimiyyəti, hətta ən sıravi bir erməni də dərk edir. "Biz Türkiyə ilə də dialoq aparırıq. Hər halda, diplomatik münasibətlərin qurulması baxımından hələ ki, heç bir uğur əldə etməsək də, heç vaxt belə fəal dialoqumuz olmayıb", deyən Nikol Paşinyan bununla etiraf edib ki, son zamanlar dialoq daha intensiv xarakter alıb. Daha dəqiq desək erməni baş nazir etiraf edib ki, ölkəsi üçün heç zaman belə bir tarixi şans yaranmayıb. Həmçinin o bildirib ki, Ermənistanla Türkiyə arasında münasibətlərin nizamlanması strateji baxımdan ölkəsi üçün çox mühüm məsələdir və deməli, Vovayeviç bu şansı qaçırmamaq niyyətindədir. Onun hakimiyyət komandasında təmsil olunanların da fikirləri bunu deməyə əsas verir ki, ümumilikdə Ermənistan hakimiyyəti onlara tarixi bir şans verildiyini çox yaxşı dərk edir. Məsələn, Ermənistan Xarici İşlər Nazirliyinin rəhbəri Ararat Mirzoyanın bu ilin noyabr ayında ölkə parlamentində çıxışı zamanı dedikləri də bunu isbatlayır. "Nikbinliyimi bildirmək istərdim ki, ən azı üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün Ermənistan-Türkiyə sərhədinin açılması ilə bağlı razılaşmalarımız yaxın vaxtlarda həyata keçiriləcək və xoş xəbərlərimiz olacaq", deyən Ermənistan XİN rəhbərinin nə dərəcədə "sevincək" olduğu ifadələrindən dərhal hiss olunur. Yəni, onun özü də tarixi bir şans əldə etdiklərinin fərqindədir. Təsadüfi deyil ki, həmin o erməni diplomat Brüsseldə keçirilən "Şərq Tərəfdaşlığı" ölkələri nazirlərinin görüşündə çıxış edərkən də Ermənistan hökumətinin regionda sabit və uzunmüddətli sülhü təmin etmək üçün siyasi iradəyə malik olduğunu bəyan etmişdi. Bütün bunlar ondan xəbər verir ki, rəsmi İrəvan, eləcə də erməni cəmiyyəti hansı şans əldə etdiyini dərk etməkdədir və ümid edirik ki, bu tarixi şansı qaçıracaq dərəcədə böyük səhvə yol verməzlər.

Hər bir halda, Ermənistan tərəfi gec də olsa qəflət yuxusunda ayılmalıdır. Ayılmalıdır və dərk etməlidir ki, qonşularla sülh olmadan, normal münasibətlər qurulmadan regionda rifah və təhlükəsizlik təmin edilə bilməz. Dərk etməlidir ki, bu vaxta qədər süni şəkildə yaradılan düşmənçilik aradan qaldırılmasa, həmin o münasibətlər də nizamlanmasa, sülh danışıqları olmasa, sülh şəraiti bərqərar edilməsə uzunmüddətli sabitliyin və təhlükəsizliyin təmin edilməsindən qətiyyən danışmaq belə mümkün deyil. Bu isə Ermənistanın marginallaşmış və dalana dirənmiş vəziyyətdə bundan sonra da səfalət içərisində, xaotik durumda, qarmaqarışıqlıqlar içərisində olacağı deməkdir. Yəqin ki, bunun fərqində olanlar üçün sülhün, sabitliyin, təhlükəsizliyin nə demək olduğu da bəllidir. O da bəllidir ki, həmin o sabitlik, təhlükəsizlik, bununla da mövcud acınacaqlı durumdan çıxmaq üçün Ermənistan tarixi şans qazanıb. Güman edirik ki, bu tarixi şans layiqincə qiymətləndirilər.

**_İnam Hacıyev_**

TƏHLİL

# 20 ilin uğurları söz və əməlin vəhdətində

***Ötən 20 illik tariximiz Azərbaycanın böyük bir salnaməsini yaratmış, güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan dövlət kimi öz imicini təsdiqləmişdir. Dövlət siyasətinin müasir modelini yaradan Azərbaycan Prezidenti İlham Əliyevin yüksək idarəçilik məharəti, qətiyyəti və milli maraqlara əsaslanan daxili və xarici siyasəti nəticəsində bütün sferalarda əldə olunan nailiyyətlərin kökündə müdrik siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat və ən əsası da xalq-iqtidar birliyi Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir.***







Dövlət başçısı prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində verdiyi vədlərin hamısının yerinə yetirilməsinə nail olmuşdur. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi Cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərkən bildirmişdi: "İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Keçirilən seçkilərində seçicilərin 76 faizdən çoxu Cənab İlham Əliyevin lehinə səs verdi və 2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı seçilməsindən ötən dövr ərizində ölkəmizin qazandığı uğurlar hər bir vətəndaşın diqqətindədir. Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər: "Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Həqiqətən də, belə oldu. Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Ötən iyirmi il aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmişdir. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Əbəs deyil ki, 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində xalqımız Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi.

## MÜASİR MÜSTƏQİL AZƏRBAYCANIN DEVİZİ - GÜCLÜ XALQ, GÜCLÜ DÖVLƏT, GÜCLÜ LİDER VƏHDƏTİ

Ölkəmizin istənilən bir sahəsində uğurları görmək mümkündür ki, bu da insanların firavanlığının təminində mühüm rola malikdir. Görülən işlər deməyə əsas verir ki, Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti oldu və xalqın etimadını doğrultdu. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə daha da böyük inam və əminlik yaradıb. Prezident İlham Əliyev dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasəti qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirdi. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkdi, bir çox ölkədə öyrənilməyə başlandı və örnəyə çevrildi. Azərbaycan kosmik dövlətlər ailəsinə daxil oldu, müasir, modern dövlətə çevrildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir. Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır.

**Təhlil**

## DÖRD DÖVLƏT PROQRAMI VƏ REGİONLARA YATIRILMIŞ İNVESTİSİYALAR

Azərbaycanın uğurlu inkişafının təmin edilməsində və qarşıda duran bütün əsas vəzifələr uğurla icrasının təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyüyüb, əhalinin nominal gəlirləri isə 10,5 dəfə artıb. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. Statistik rəqəmlərə əsasən. 2004-2022-ci illərdə ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Elektrik enerjisinin 76%-i regionlarda istehsal edilir. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-ə çatıb. Bu illərdə 9 hava limanı tikilib və yenidən qurulub.

Laçın hava limanının tikintisi isə davam edir. Həmin müddətdə əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, 43 Olimpiya İdman Kompleksi tikilib, çoxlu sayda körpü və tunellər, yollar istifadəyə verilib. İstehsal və sənaye müəssisələrinin çoxu bölgələrə aiddir. Hazırlanan növbəti dövlət proqramı da regionların inkişafının müasir tələblərə uyğunlaşdırılmasına hesablanıb. Bütün bu və ya digər göstəricilər və statistik rəqəmlər deməyə əsas verir ki. Azərbaycan böyük bir ikkişaf yolu keçərək nufuzunu yüksəltməyə nail olub. Bu göstəricilər insanların rahatlıq və firavanlığını yüksəldib.

## REGİONDA YENİ REALLIQLARIN MÜƏLLİFİ

Müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır. Regionda yeni reallıqların müəllifi və postmünaqişə mərhələsinin ümumi geosiyasi ab-havasının yenilənməsində əsas söz sahibi olan Azərbaycan regional əməkdaşlıq, sabitlik və inkişaf üçün genişmiqyaslı təşəbbüslər irəli sürür.

# Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu



”Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır”, - deyə Prezident bildirib. Cənab İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur.



*Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir.*

## NEFT KAPİTALININ İNSAN KAPİTALINA ÇEVRİLMƏSİ STRATEGİYASI

Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edib. Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Son 20 il ərzində ümumi daxili məhsul (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, ÜDM-in real həcmi 4 dəfə artıb. Adambaşına ÜDM 769 ABŞ dollarından 7.798 ABŞ dollarına yüksəlib. Qeyri-neft-qaz ÜDM-i 4,1 milyard ABŞ dollarına çatıb. Ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dollarından 52,7 milyard ABŞ dollarına yüksəlib.

İxracın həcmi 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatıb. Qeyri-neft ixracı 0,26 milyard ABŞ dollarından 3,05 milyard ABŞ dollarına yüksəlib. Xarici ticarətin profisiti 0,5 milyard ABŞ dollarından 23,6 milyard ABŞ dollarına çatıb. 2003-2022-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artıb. Təbii ki, bütün bunlar bir daha deməyə əsas verir ki, Cənab Əliyevin 20 illik prezidentliyi dövründə bütün sferalarda çevik islahatlar aparılıb, dövlət proqramları qəbul olunub. Düşünülmüş iqtisadi siyasət nəticəsində beynəlxalq qurumlarla səmərəli əlaqələr qurulub, vacib olan neft strategiyası davam etdirilib.

## BÖYÜK SİYASİ VƏ DİPLOMATİK QƏLƏBƏMİZ

Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəklikləridir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Cənab Prezident ”Bizim siyasətimiz, addımlarımız, xoş niyyətimiz və xarici siyasətimizin əməkdaşlıq üzərində qurulması bizə böyük dostlar düşərgəsi qazandıra bilmişdir. Təsadüfi deyildir ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə üzv seçilmişdir. Bu, bizim böyük siyasi, diplomatik qələbəmizdir, müstəqil Azərbaycanın böyük uğurudur”, - deyə bildirmişdir.

## CƏNUBİ QAFQAZ REGİONUNDA ƏN GÜCLÜ ORDUYA MALİK ÖLKƏ STATUSU

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılmasını hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bizim ölkəmiz üçün yeni dövr başlayır: ”Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq”.

Əlbəttə ki, azad edilmiş torpaqların dirçəlişi və reinteqrasiyası ümumilikdə ölkənin iqtisadi potensialının artmasına geniş imkanlar vəd edir. ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqrammı”nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 2021-ci ildən bu günədək 12 milyard manata yaxın vəsait ayrılıb. Bununla yanaşı, bərpa və quruculuq işlərinə özəl investisiya cəlb olunması əsas məqsədlərdəndir. İnvestisiya cəlbi ilə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, məhsuldar ərzaq istehsalına əsaslanan dayanıqlı təcrübələrin tətbiqi, turizmin təşviqi və digər tədbirlər gerçəkləşdirilir. Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar. ”Ağıllı şəhər”, ”ağıllı kənd” və ”yaşıl enerji zonası” konsepsiyalarının tətbiqi bölgədə rahat və müasir həyat şəraitini təmin edir.

Azərbaycanın ötən 20 il ərzində iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olması bu uğurlara söykənir. Ölkəmizi gələcək işıqlı yolunda daha da böyük uğur və nailiyyətlər gözləyir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Gurultu ilə qurultay arasında fərqi duymayanlar...



***Dekabrın 16-da AXCP-nin növbəti "gurultayı" baş verdi. Tədbir partiya rəhbərinin sosial şəbəkələrdəki səhifələrində canlı yayımlanırdı. Əslində, "partiyanın növbəti qurultayı" adlandırdıqları bu tədbirdə peşəkar siyasətlə bağlı heç nə yox idi və bu yığıncaq analitika baxımından heç bir maraq yarada bilməzdi.***

Qeyd etdiyimiz kimi, bu "gurultay" daha çox "ehtiraslı" bəyanatlar şousuna bənzəyirdi. Bir qədər sonra nümayiş olunmuş şou ilə əlaqədar bəzi məqamları qeyd edərik. Öncə isə digər heç də daha az maraqlı olmayan iki məsələyə diqqət yetirək. Bu psevdopatriot şivənlərin ötən illər ərzində ən sevimli mahnısının adı: "bizə tədbir keçirməyə imkan vermirlər". Təbii olaraq, burada sual yarana bilər: "imkan yaradılmırsa bəs bu "gurultay"lar necə keçirilir?

Bu fikirlər politoloq A.Adilin "Gurultu ilə qurultay arasında fərqi duymayanlar..." sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir. Tədbir həm partiyanın, həm də partiya lideri hesab olunan Əli Kərimlinin sosial şəbəkə səhifəsində canlı yayımlanırdı. Bəs biz hər zaman bu bəla-siyasətçilərdən eşidirik ki, guya "Azərbaycanda senzura var və internetdə fəallıq üçün məhdudiyyətlər yaradılır". Razılaşın ki, onların dedikləri ilə bizim gördüklərimiz heç uzlaşmır. Bu, necə məhdudiyyətdir ki, Əli Kərimli və onun bayraq tutanları ifrat fikirlərini çox rahat şəkildə səsləndirir və hətta təxribatlarla da məşğul olurlar?

Mövcud konteksti inkişaf etdirərək daha bir maraqlı məqama diqqət yetirək. Tədbir zamanı internetlə bağlı heç bir məhdudiyyət yox idi və bu "gurultay" tam şəkildə yayımlanmışdı. Əminəm, heç kəsdə şübhə belə yarana bilməz ki, əgər süni mane yaratmaq istəyi olsa idi, bütün internet xətlərində qısaqapanmalar baş verərdi. Bu, olduqca bəsit təcrübədir, hətta məşhur müğənnilər belə öz konsertlərinin internet üzərindən canlı yayımlanmasının qarşısını alırlar. Yenə də qəribə sual yaranır: "Bəs Əli Kərimlinin daim vurğuladığı "mənim internetə çıxışım yoxdur" fikri nə dərəcədə doğrudur?". İki kiçik epizod radikalların qərəzini bütün çılpaqlığı ilə ifşa edir. Elə buna görə də bu bəlalı siyasətçiləri xalqımız haqlı olaraq "qaragüruh" adlandırıb. Bu "dəstəcik" seçkilərdə iştirak etmiş olsa idi, yəqin ki, onların əsas siyasi şüarı "Qərəzlə, şivənlə 80-ci illərə irəli" olardı...

Otuz ildən sonra AXCP nəhayət ki, öz proqramını hazırlayıb, ən azından qeyd olunan toplantıda bu fikir səsləndirilmişdir. Hətta proqramı ictimailəşdirmək niyyətində olduqlarını bəyan ediblər. Ümid edirik ki, partiya öz proqramını cəmiyyətə təqdim edəcək. Axı onlar "əsl demokratlardır". Yeri gəlmişkən, burada xatırladaq ki, hakim Yeni Azərbaycan Partiyasının proqramı daim əlçatan olub və onun mətni ilə hər kəs sərbəst şəkildə tanış ola bilər. Sadəcə kontekst çərçivəsində iqtidarın daha bir demokratik təşəbbüsünü xatırladaq. Belə ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi bir neçə dəfə ictimailəşdirilmiş və hətta layihənin Milli Məclisdə açıq müzakirələri də təşkil olunmuşdu. Görəsən, ölkənin demokratik ənənələrini artıran iqtidarın qeyd etdiyimiz təşəbbüsləridir, yoxsa radikalların cəmiyyətdə nifrət toxumlarının səpmək istəyidir?

"Ehtiraslı bəyanatlar" şousu olan AXCP-nin sözügedən "gurultayı", eyni zamanda, klassik radikal ritorikanın təcəssümüdür. Burada qənaətlərin obyektivliyi naminə mütləq olaraq radikal ritorikanı səciyyələndirən əsas xarakteristikaları yada salaq: emosional gərginliyi yarada biləcək isterika, ifratçılıq, ümidsizlik, cəmiyyəti parçalamağa xidmət edən çağırışlar, küçələrdə iğtişaşların təbliği, bədbinlik və s. Gördüyünüz kimi, bu cür ritorika sadəcə ictimai nikbinliyi pozmur, bu ritorika rasional düşüncəni iflic edir və ictimai münasibətlərdə emosional gərginliyin yaradılmasına "kömək" göstərir.

Mütləq şəkildə unutmayaq ki, "boykot" texnologiyanın strateji hədəfi digər məsələlərlə yanaşı, əhalinin ictimai şüurunda seçki ilə bağlı yanlış stereotiplərin formalaşdırılmasıdır. Heç də uzaq olmayan tarixi xatırladaq. "Siyasi partiyalar haqqında" yeni qanuna uyğun olaraq, cəmi 5 min üzv toplamaqda böyük çətinlik çəkən radikal siyasi qüvvələrin ictimai dəstəklə bağlı bütün uydurma mifləri puç olub. Heç bir elektoratı olmayan və ötən illər ərzində bütün etibar limitini itirmiş radikallar öz zəifliyini etiraf etmək əvəzinə, növbəti dəfə təxribat və cəmiyyətdə ixtilaf yaratmaq yolunu seçiblər. Odur ki, həqiqətləri görməyi bacaraq və emosional manipulyasiyalara uymayaq. "Kirli" siyasi texnologiyalarının ifşasına davam...



Mətanət Məmmədova

## Trendyol Azərbaycan : 59.99, yoxsa 99.99?..

***Hər kəsin sevimli alış-veriş yeri olan Trendyol.com tərkibində yüzlərlə mağaza, minlərlə məhsul çeşidi olan, baş ofisi İstanbulda yerləşən Türkiyənin ən böyük elektron ticarət platformasıdır. Eyni zamanda hər kəsə zövqünə uyğun geyinmək, kosmetik vasitələr, aksesuar və minlərlə sayda digər əşyaları əldə etmək imkanı verən vasitədir.***

Trendyol insanları istəklərinə çatdırmaqla yanaşı, həm də minlərlə insanın iş yeridir. İllərdir, fəaliyyəti ilə hər kəsin sevimlisi olan Trendyolda hər dəfə edilən dəyişikliklər, təqdim olunan kampaniyalar, verilən endirim kuponları, 3-12 aylıq kreditlə ödəmə imkanı və sair onlarla bu kimi təkliflər təbii ki, ondan istifadə edənlərin hər birinin ürəyincə olur.

Trendyol-un Türkiyədə və ölkəmizdə bu qədər məşhur olmasında əsas səbəblər həm də sezon sonlarında və xüsusi günlərdə təşkil edilən böyük endirimlərdir. Black Friday zamanı həyata keçirilən 70-80-90 faizlik endirimlər və eyni zamanda Trendyol-un dili ilə desək "Möhtəşəm Sezon Endirimləri" bu platformanı daima aktiv saxlamağa kömək etməkdədir. Eyni zamanda Trendyol-da müxtəlif funksionallıqlar və məmnuniyyət proqramları da həyata keçirilməkdədir.

Bir neçə ay öncə Trendyoldan Azərbaycana birbaşa çatdırılmanın bir neçə ay əvvəl tətbiq olunması isə bu vasitə ilə alış-veriş edənlərin tam ürəyincə olmuşdu. Çünki müxtəlif karqo şirkətləri alıcılara çəkiyə görə istədiyi qiyməti tətbiq edirdisə, yeni tətbiqlə çəkisindən asılı olmayaraq bütün sifarişlər eyni qiymətə, əvvəlcə 49.99, sonra isə 59.99 türk lirəsi ilə sahibinə çatdırılırdı ki, bu da hər təbəqədən ola insanlara istədiyini əldə etməkdə əlçatanlığı təmin edirdi. Azərbaycan təslimatından istifadə edənlər bir-birindən uyğun kampaniyalardan da istifadə etdilər. Son olaraq isə "YENİ 10" kampaniyası ilə 10 faiz endirimlə Trendyol Azərbaycan alıcıların xidmətindədir.

Lakin hazırda alıcıların bir hissəsi üçün Azərbaycan tətbiqində çatdırılma 59.99, digər hissəsi üçünsə 99.99 türk lirəsi olaraq göstərilir. Və indi hər kəsi düşündürən və narahat edən məsələ də elə budur. Birinci, ona görə ki, çatdırılma birdən-birə 59.99-dan 99.99-a çatdırıldı. İkinci, ona görə ki, bu, heç də hamıya şamil deyil. Beləliklə hazırda Trendyolun Azərbaycan təslimatından istifadə edənlər eyni hüquqa sahib deyil. Belə bir qənaətə də gəlmək olar ki, yəqin sistemdə nə isə bir problem yaşanmaqdadır. Yoxsa eyni tətbiqdə eyni istifadəçiyə iki fərqli qiymətin tətbiq olunması mümkün deyil?

Hər kəs istər ki, istifadəçilər arasında qısa zamanda nüfuz qazanan Trendyol Azərbaycan tətbiqində bu kimi problemlərlə qarşılaşmasın. Ümidvarıq ki, buna cavabdeh olan şəxslər tezliklə bu məsələnin həlli yollarını axtarıb tapacaq və istifadəçilərin hər biri bu tətbiqdə özünü eynihüquqlu görə biləcək.

## Onlayn ticarət iqtisadiyyata necə təsir göstərir?



"Onlayn ticarət tendensiyası ölkəmizdə işsizlərə, iş qurmaq istəyənlərə bir növ motivasiya olar. Digər ölkələrin tanınmış saytları var ki, bütün dünya ölkələrindən sifariş qəbul edirlər. Bu da təbii ki, ölkə iqtisadiyyatına böyük dəstəkdir. Ümid edirəm ki, ölkəmizdə də olar". Bu sözləri SİA-ya iqtisadçı ekspert Günay Hüseynova deyib. Onun sözlərinə görə, onlayn ticarət platformasının müsbət tərəfləri çoxdur: "Əvvəla mağazaların kirayə haqqı olduqca yüksəkdir, bundan əlavə digər xərclərdə var. Yəni, ayda gəliri olsa da, olmasa da sahibkar bu xərcləri ödəməlidir. Alıcılar yönündən baxdıqda isə işləyən insanların vaxtı olmur ki, mağaza-mağaza gəzib hansısa məhsulu alsın".Ekspert sözlərinə davam edərək bildirib ki, digər yandan öz işini qurmaq istəyənlər üçün də stimul olar: "Dəfələrlə şahid oluruq bazar yanır, sahibkarın malı kül olur və ya biri yeni yer açar, "haqq" alınır axırda məcbur olur bağlamağa. Ona görə də ən optimal variant e-ticarətdir vergisini versin, məhsulunu satsın alıcı ilə satıcı bir növ üz-üzə gəlməsin".

***Ləman Sərraf***

**EKSPERT FİKİR BİLDİRDİ**

## Növbədənkənar seçkilər erməniləri vəlvələyə salıb

*Onlar nə düşünürlər?*

***"Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri gələcək regional konfiqurasiyanın formallaşdırılması baxımından çox mühüm mərhələ olacaq".***



**"Əliyev həm də avropalıların dediyi kimi, etibarlı tərəfdaşdır"**

Bu barədə rusiyayönümlü erməni politoloqu, "Erməni layihəsi" ictimai təşkilatının rəhbəri Sergey Melkonyan ölkəsinin mətbuatına danışıb.

**Sergey Melkonyan: "Bu addımlar Ermənistanla sülh müqaviləsinin imzalanması və ya "Qərbi Azərbaycan" ideyasının həyata keçirilməsi ola bilər"**

Onun sözlərinə görə, məhz bu kontekstdə İrəvan istənilən ssenariyə hazır olmalıdır. Melkonyan 19-20 sentyabr tarixində antiterror tədbirinin uğurla başa çatmasından sonra Azərbaycan Prezidenti İlham Əliyevin bir qədər də yüksəltdiyi reytinqini "kapitallaşdırmaq" istəyinin mümkünlüyü ilə yanaşı, Azərbaycan liderinin Ermənistan "cəbhəsi"ndə növbəti addımlar üçün daxili legitimlik əldəetmə niyyətini də istisna etməyib: "Bu addımlar Ermənistanla sülh müqaviləsinin imzalanması və ya "Qərbi Azərbaycan" ideyasının həyata keçirilməsi ola bilər".

Erməni analitiki əlavə edib ki, sözügedən prosesin məntiqi belədir: "Onlar öz bayraqlarını Xankəndi və Şuşada qaldırıblar, növbəti məqsəd azərbaycanlıların İrəvana, Gorusa, Göyçəyə və s. qayıtması olmalıdır". Melkonyana görə, seçkilər həm də İlham Əliyevə "xarici legitimlik qazanmağa" kömək edəcək: "Onun Qarabağdakı "etnik təmizləmə"dən (dırnaqlar bizimdir) bir neçə ay sonra yenidən Prezident seçilməsi və qələbəsinin əsas aktorlar tərəfindən tanınması mahiyyət etibarı ilə beynəlxalq ictimaiyyətin nöqteyi-nəzərində Qarabağda qanundankənar heç bir şeyin baş verməməsi deməkdir", – deyə o, "Əliyev həm də avropalıların dediyi kimi, etibarlı tərəfdaşdır".

***Afət Tahirqızı***

# Əli Kərimli cəbhəçiləri məyus etdi

## *AXCP-dən növbəti istefaların baş verməsi gözlənilməndir*

***Xalqımız Qarabağ qələbəsindən sonra növbəti zəfərə hazırlaşır. Ölkəmizdə Prezident, Yenilməz Sərkərdə İlham Əliyev 30 illik erməni işğalına son qoyub, Bütöv Azərbaycanı yaratdıqdan sonra ilk dəfə olaraq seçkilər keçiriləcək. Bəli, 30 ildən sonra ilk dəfə Xankəndidə, Ağdərədə, Xocavənddə, Şuşada, Xocalıda və digər işğaldan azad edilən ərazilərdə növbədənkənar prezident seçkiləri baş tutacaq.***



ANALİZ

Millət buna görə sevincli və qürurludur. Üzlərdəki təbəssüm, məmnunluq əhalinin 7 fevral seçkilərinə bayram əhval- ruhiyyəsi ilə hazırlaşdığını göstərir. Yalnız ənənəvi dağıdıcı müxalifət xalqın sevincindən, şadyanalığından kənarda qalıb. Yenə də seçkilərlə bağlı qarayaxma kampaniyası aparılır, şər və böhtanlar səsləndirirlər. Hətta AXCP, Müsavat, "Milli Şura" kimi anormal qurumlar bir araya gələrək seçkilərin boykot edilməsi barədə qeyri-ciddi qərarda qəbul ediblər. Boyunlarından böyük iddialarla çıxış etməkdən çəkinməyən dağıdıcı müxalifət qeyd edir ki, guya müxalifətin əksər hissəsi seçkiləri boykot etmək fikrindədirlər. Lakin fakt ondan ibarətdir ki, sağlam və konstruktiv siyasətin aparılmasına üstünlük verən "BQP, BAXCP, Vəhdət, "Ağ" partiya, AMİP, BAP və digər müxalifət partiyaları növbədənkənar prezident seçkilərinin keçirilməsini alqışlayırlar. Bəzi müxalifət partiya sədrləri azad, demokratik seçki mühitindən yaralanaraq 7 fevral nöbədənkənar prezident seçkilərində namizədliklərini irəli sürməyi planlaşdırırlar.

### Dağıdıcı müxalifət YAP-ın seçki taktikasından dərs götürməlidir

Ə.Kərimli isə absurd iddia ilə çıxış edərək bildirir ki, guya seçkilərin keçirilməsi gözlənilməz olub. O, sosial şəbəkə hesabında yazır: "Dekabrın 7-də gözlənilmədən növbədənkənar prezident seçkiləri təyin edildi. Seçkilər cəmi 2 ay sonraya - 2024-cü il, 7 fevral tarixinə təyin olunub. Bu seçkilərlə bağlı cəmiyyətə əvvəlcədən məlumat verilməyib, heç bir ictimai müzakirə aparılmayıb". Ancaq Ə.Kərimli anlamır ki, hər bir siyasi partiya istənilən gözlənilməz siyasi situasiyaya hazır olmalıdır. Digər tərəfdən özünə güvənən, sosial bazasına arxalanan istənilən siyasi partiya üçün seçkilərin nə zaman və hansı şəraitdə keçiriləcəyi problem olmamalıdır. Nümunə olaraq xalqın partiyası olan Yeni Azərbaycan Partiyasının sərgilədiyi seçki taktikasını göstərmək olar. YAP seçkilərin keçirilməsi barədə qərar elan olduqdan dərhal sonra toplandı və nəyi necə, hansı formada həyata keçirməyi müəyyənləşdirdi. Dekabrın 15-də isə YAP İdarə Heyəti keçirdiyi toplantıda bütün xalqın arzu etdiyi, birmənalı şəkildə daxili və xarici siyasətini dəstəklədiyi, qalib Sərkərdə, müdrik Lider İlham Əliyevin namizədliyini irəli sürdü. Seçki siyasətini həyata keçirən dövlət qurumları da üzərlərinə düşən vəzifələrini qanunlar və qaydalar çərçivəsində həyata keçirirlər. Mərkəzi Seçki Komissiyasının iclasında qəbul edilən qərara əsasən, istənilən seçki hüququ olan vətəndaşlar, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar və siyasi partiyaların blokları Azərbaycanda prezidentliyə namizədliyini irəli sürə bilərlər. Mərkəzi Seçki Komissiyasının dərc etdiyi təqvim planına əsasən, prezidentliyə namizəd olmaq istəyən şəxslər 2023-cü ilin dekabrın 19-dan, 2024-cü il yanvarın 8-i axşam saat 18:00-dək namizədliyin qeydə alınması ilə bağlı seçki sənədlərini MSK-ya təqdim etməlidirlər. Prezidentliyə namizədlərin seçkiqabağı təşviqatlarını aparmaları üçün isə 22 gün ayrılıb. MSK-nın məlumatına görə, namizədlər üçün təşviqat kampaniyası 2024-cü il yanvarın 15-dən başlayır və onlar fevralın 6-sı səhər saat 8:00-dək təşviqatlarını dayandırılmalıdırlar.

### Dağıdıcı müxalif partiya sədrləri sıravi üzvlərin iradəsini nəzərə almadan özbaşına qərarlar qəbul edirlər

Mərkəzi Seçki Komissiyasının saytında qeyd olunur ki, seçkilərdə vətəndaşların seçki hüququnun pozulması ilə bağlı "şikayətlərin araşdırılması, eləcə də seçicilərin seçki hüquqlarının səmərəli təmin olunması" məqsədi ilə 9 nəfərdən ibarət ekspert qrupu yaradılıb. Yəni, seçkilərin azad və demokratik, əhalilinin iradəsinə uyğun olaraq keçirilməsi üçün hər cür şərait və imkanlar yaradılıb. Belə bir məqamda nədənsə narazılıq etmək və hay -küy qaldırmaq başa düşülən deyil. O şübhələri yaradır ki, deməli, məsələnin kökündə xarici qüvvələrin sifarişləri və göstərişləri dayanır. Birincisi, seçkilərə namizəd kimi qatılmaq istəyən tərəflərə bərabərhüquqlu şərait yaradılıb. İkincisi, hər bir siyasi partiyanın gücü yalnız-seçkilərdə məlum olur. Əgər siyasi partiya seçkilərə qatılmırsa, deməli, gücünə inamsızlıq var və həmin təşkilatın rəhbəri mütləq istefa verməlidir. Görünən isə ondan ibarətdir ki, AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, Müsavat başqanı Arif Hacılı seçkilərə qatılmamaqla partiya üzvlərinə hörmətsizlik göstərməklə yanaşı, eyni zamanda, sədrlikdə qalmaqda israrlı görünürlər. Bu da onların siyasətə, xüsusilə də sədrlik kreslosuna gəlir mənbəyi olaraq baxdıqlarını göstərir. Bir sözlə, fakt ondan ibarətdir ki, dağıdıcı müxalif partiya sədrləri sıravi üzvlərin iradəsini nəzərə almadan özbaşına qərarlar qəbul edirlər. Çox vaxtı bu kimi özbaşına verilən qərarlar partiyalarda qalmaqallara, istefalara gətirib çıxarır. Müsavatda, AXCP-də baş verən istefalar, qopmalar qeyd olunanlara misal ola bilər. Səhvlərindən isə partiya sədrləri nəticə çıxarmırlar. Yəni, öz yanlış siyasətlərini davam etdirirlər. Eyni yanlışlıq və səhv siyasət 7 fevral 2024-cü ildə keçirilməsi nəzərdə tutulan növbədənkənar prezident seçkilərinə münasibətdə də özünü göstərməkdədir. Müsavat başqanı Arif Hacılı, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli və AXCP sədri Əli Kərimli sıravi üzvlərin iradəsinə zidd olaraq, seçkilərin boykot edilməsi çağırışları ilə çıxış edirlər. Bu da təbii olaraq sıravi üzvlər tərəfindən narazılıqla qarşılanır. Artıq AXCP-dəki narazılıq növbəti istefaların yaranmasına gətirib çıxarmaqdadır. Yaxın günlərdə fərdi istefaların, kütləvi qopmalarla əvəzlənəcəyi şübhəsizdir. Görünən isə ondan ibarətdir ki, Ə.Kərimlini partiyadaxili qiyam narahat etmir. Onun üçün əsası xarici ağalarının sifarişləri və bu sifarişlərin yerinə yetirilməsi qarşılığında alacağı maliyyə vəsaitidir. Pula görə əqidəni və məfkurəni satışa çıxarmaq isə heç bir halda siyasətçiyə uğur gətirməz.

***İLHAM ƏLİYEV***

# CityNet-in dəstəyi ilə MilliNet 2023 müsabiqəsi baş tutdu




CityNet şirkətinin baş sponsorluğu ilə Milli İnternet Mükafatı müsabiqəsi - MilliNet 2023 baş tutub.Azərbaycan İnternet Forumu tərəfindən ənənəvi olaraq keçirilən MilliNet müsabiqəsinin qaliblərinin yekun təqdimat mərasimində dövlət və özəl sektorun nümayəndələri, ölkənin internet ictimaiyyətinin, İKT sektorunda fəaliyyət göstərən aparıcı şirkətlərin və media qurumlarının nümayəndələri iştirak ediblər. Bu il müsabiqəyə13 nominasiya üzrə 222 internet resurs təqdim edilib və onlardan 195-i qəbul edilib.Bu il ilk dəfə müsabiqə zamanı resurslar təkcə əvvəlki üç istiqamət (dizayn, kontent və texniki) üzrə deyil, artıq layihənin faydalılığı, əhəmiyyəti və əhatə dairəsi nəzərə alınmaqla da qiymətləndirilib. Yekunda 13nominasiya üzrə nominat statusu almış 71 resursdan ən yaxşıları seçilib.

"Öz fəaliyyətində müştəri yönümlülük prinsipini rəhbər tutan və innovasiyaları tətbiq edən CityNet Azərbaycanda İKT sektorunun inkişafında fəal rol oynayır. Biz MilliNet 2023 müsabiqəsini dəstəkləməkdən məmnunuq və ölkəmizdə rəqəmsal ekosistemin inkişafına töhfə verən layihələrinreallaşmasında maraqlıyıq. Şirkət olaraq hədəfimiz abunəçilərə fərdi və korporativ seqmentlərdə daima keyfiyyətli bağlantı və mükəmməl müştəri xidmətləri təqdim etməkdir. Bu istiqamətdə fəaliyyətimizdə ən son yenilikləri tətbiq etməkdə və ölkə üzrə əhatə dairəmizi genişləndirməkdə davam edəcəyik", - deyə CityNet şirkətinin Baş icraçı direktoru Teymur Əsgərzadə bildirib. MilliNet İKT sahəsi üzrə mütəxəssisləri bir araya toplayan, innovasiyaları təşviq edən, ən yaxşı milli internet resurslarınınınkişafı və tanıdılmasına, ümumilikdəisə ölkəmizdə informasiya texnologiyalarının inkişafına töhfəverənmüsabiqədir.



Elçin Bayramlı

# Müharibəni dayandırın!

*"Bu camaata nə olub ki, az qala söz də anlamırlar!"*
*(Quran, Nisa 78)*

Vətəndaş müharibəsinin odlu silahlarla kütləvi qarşıdurma, qardaş qırğını forması yaxın tariximizdən yaxşı məlumdur. Lakin, onun bu yazımızda danışacağımız soyuq forması da var ki, son illərdə xeyli şiddətlənib. Sovet İttifaqının süqutundan sonra cəmiyyətdə aqressiya, qarşıdurma meylləri artmağa başladı. 90-cı illərin əvvəllərində bu daha çox silahlı qarşıdurma formasında olurdu. Üstəlik, mafiyalar, reket dəstələri, məhəllə və küçələr arası "talpa" davaları dəbə mindi. Zamanla bu mərhələni keçdik. İndi cəmiyyətdə necə deyərlər, nisbi sabitlikdir.

Əslində isə, müharibə "soyuq" müstəviyə keçib. Kriminal hadisələrin sayı getdikcə artır. Mətbuatı və televiziyanı bircə gün izləmək kifayətdir ki, zorlama, intihar, bıçaqlanma, oğurlanma, zəhərlənmə, güllələnmə, əlbəyaxa dava və s bu kimi soyuq vətəndaş müharibəsi elementlərinin getdikcə çoxaldığını görəsən.

Bu yazıda kriminal statistikanı verib vəziyyəti tam təsəvvür edə bilməyənləri də qorxutmaq istəmirəm. Lakin qeyd etməliyəm ki, xalqımız artıq belə xəbərləri adi hadisələr kimi qəbul edir və gündəlik izləyir.

Bakıda bir-birinin maşınına yol verməmək və yanındakı qıza başqasının baxması üstündə baş verən qanlı davalarda bir vaxtlar amerikan kinolarında gördüyümüz mənzərələri indi real görürük. Yaxşı ki, bu ölkədə odlu silah saxlanması qadağandır, yoxsa hər gün şəhərin ortasında adamlar bir-birini güllələyər...

Yad adamlar bir yana, son vaxtlar müharibə keçib qohumlar arasına və ailə daxilinə. Ata qızını zorlayır, oğul anasını öldürür, qardaş bacısının başını kəsir, ana körpəsini boğur... Nə baş verir? Çətin sualdır! Bu vəziyyətin səbəb və nəticələrini araşdırmaq lazımdır, bunu bir çoxları etməyə çalışırlar da. Lakin birmənalı olaraq hamı nəticə ilə uğraşır, onu aradan qaldırmaq yolları axtarır. Halbuki, səbəb aşkar edilib aradan qaldırılmalıdır. Cəmiyyət bölündükcə kiçilir, zeifləyir. Vahid ideologiya yoxdur. Dindar kəsim onlarla təriqətə bölünüb, hər kəs digər dinə, təriqətə mənsub olanı kafir sayır, hətta bir-birinə əsəbiləşəndə "sənin qətlin vacibdir" deməkdən də çəkinmir. İctimai-siyasi fəalllar müxtəlif kiçik partiyalar arasında bölünüb, hər kəs başqasını satqın, saxtakar hesab edir. İdeoloji bölünmə də sürətlə gedir- Millətçi, türkçü, avropaçı, amerikançı, ruspərəst, iranpərəst, ərəbpərəst, kosmopolit, leberal, sosialist, qlobalist...

Sosial qruplar sürətlə ayrılır və aralarında uçurum böyüyür. Sosial ədalət, hüquqi bərabərlik tam təmin olunmur. Evdə körpəsi acından və ya xəstəlikdən ölən insanın yanından bir harınlamış müxtəxor 150 minlik maşınla keçib onu palçığa batıranda nifrət pik həddə çatır.

Problem təkcə sosial, ideoloji, siyasi, dini, milli parçalanmada deyil, burda fiziki-bioloji (1), sosial-iqtisadi (2) və mənəvi-psixoloji (3) faktorların da böyük rolu var. Bir az açıqlayaq.

1. Qida terroru. GMO qidaların, süni kimyəvi qidaların, psixitrop və antidepresant dərmanların insanlarda ciddi problem yaratdığı məlumdur. Genetik, bioloji strukturun dəyişdirilməsi küt, ruhsuz, duyğusuz insanlar yetişdirir. Beləlləri adamı uf demədən milçək kimi əzib öldürürlər.

2. Sosial problemlər. İşsizlik, yoxsulluq və digər social problemlər insanlarda qəzəbi artırır, aqressivlik yaradır. Beləlləri başlarına gələn hər bəla üçün cəmiyyəti günahkar bilir və imkan düşən kimi qisas almağa çalışır. Bəzən kiçik bir qığılcım kifayət edir ki, yığılmış qəzəb enerjisini başqasının üzərində boşaltsın.

3. Psixotron terror. Özəl kanallar fasiləsiz olaraq dəhşət saçır- kriminal xəbərləri ən incə təfərrüatları ilə (başını belə kəsdim, ciyərini belə çıxardım filan) evlərə doldurur. Efiri bürüyən amerikan kinoları mənzillərə qan, ölüm, qırğın saçır. Mediadan və internetdən durmadan əxlaqsızlıq, fahişəlik, qeyretsizlik, özbaşınalıq, boşanmalar, nigahdankənar cinsi əlaqələr təbliğ olunur. Gənclərə mənfi obrazlar nümunə göstərilir. Uşaqların qorxunc multfilmlərlə, verilişlərlə zombiyə çevrilir...

Səbəblər aradan qaldırılamasa, bu müharibə də dayanmayacaq. Soyuq vətəndaş müharibəsini dayandırın, eşidirsinizmi??!

# Dövlət sosial xidmətləri sahəsində inqilab

## *DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 97,7 faizdir*

***"ASAN xidmət"dən sonra Azərbaycanın yeni brendinə çevrilən "DOST" mərkəzləri ölkəmizin dövlət sosial xidmətləri sahəsində inqilab yaradıb. Dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə DOST layihəsi, artıq bu sahədə də öz sözünü demiş oldu.***





Artıq DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsinin 97,7 faiz təşkil etməsi göstərir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər insanların rifahının daha da yüksəlməsinə yönəldilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əsasında 159 sosial xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur.

Ölkə başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Təbii ki, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi də qarşıya qoyulan məqsədlər sırasında yer alıb. Bu gün ölkəmizdə "ASAN xidmət" mərkəzləri kimi DOST mərkəzlərinin də sayı artır. Ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin qorunmasını rəhbər tutan DOST mərkəzləri hər bir vətəndaşda məmnunluq yaradır. Vətəndaşların böyük etibarını qazanıb.



### DOST MƏRKƏZİNDƏ UĞUR VƏ YENİLİKLƏR

Məlumdur ki, 9 may 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə 1 saylı Bakı DOST Mərkəzinin açılışı olmuşdur. 1 saylı Bakı DOST Mərkəzi gün ərzində 400-dən çox vətəndaş qəbul edir. Mərkəzdə il ərzində 100 mindən artıq vətəndaşa məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində, o cümlədən vahid əlaqələndirmə mərkəzi üzrə 159 xidmət göstərilir. Mərkəzdə "Könüllü DOST" proqramı üzrə 50 nəfərədək könüllü fəaliyyət göstərir. 2 saylı Bakı DOST Mərkəzində gün ərzində 100-dən çox vətəndaş qəbul edir. Mərkəzdə il ərzində 30-35 min vətəndaşa "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində, o cümlədən vahid əlaqələndirmə mərkəzi üzrə 159 xidmət göstərilir. Hər bir DOST Mərkəzi gün ərzində yüzlərlə insanda məmnunluq yaradır. Bütün bunlarla yanaşı, Qarabağ Regional DOST Mərkəzi 7 avqust 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Mərkəz gün ərzində təxminən 650-700 vətəndaş qəbul etmək potensialına malikdir. Bu prosesi 123 nəfərdən ibarət işçi heyəti və 50 nəfərədək könüllü həyata keçirir. Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Xocalı, Şuşa, Xankəndi və Xocavənd rayon sakinlərinə xidmət edən mərkəzdə il ərzində 120 minə yaxın vətəndaşa 159 adda xidmət göstərilməsi nəzərdə tutulub. Buraya məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin sosial-hüquqi, sosial-məişət və sosial-pedaqoji xidmətlər daxildir. Bundan əlavə, Qarabağ Regional DOST Mərkəzinin nəzdində Qarabağ Peşə Hazırlığı Mərkəzi fəaliyyət göstərir. 7 emalatxana, 8 sinif və təlimat otağı, eləcə də "Peşəyönümü və Karyera Mərkəzi", inzibati və texniki otaqlardan ibarət olan Qarabağ Peşə hazırlığı Mərkəzində 20 nəfərə yaxın əməkdaş çalışır.

Göründüyü kimi, davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycanın uğurlu inkişafı təmin edilib, həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə olunub.

Fəaliyyət göstərən DOST mərkəzləri vətəndaşların bütün xidmətlərdən "bir pəncərə"yə müraciət etməsinə və "bir pəncərə"dən faydalanmasına imkan verir.

***Nəzakət ƏLƏDDİNQIZ***

## "İşğaldan azad olunan torpaqlarımızda 30 ildən sonra ilk dəfə səsvermə keçiriləcək"



"Prezident seçkilərinin vaxtının müəyyənləşdirilməsi prezidentin konstitusiya səlahiyyətlərindən irəli gəlir. Azərbaycanda demokratik cəmiyyət mövcuddur, siyasi partiyalar qeydiyyatdan keçib. Bu, bir daha onu göstərir ki, hər kəs demokratik cəmiyyətdə öz namizədliyini irəli sürə, prezident kürsüsü uğrunda siyasi mübarizə apara bilər". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputatın sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 il ərzində ölkənin inkişafı naminə çox böyük uğurlara imza atıb: "Ölkə iqtisadiyyatı 3 dəfədən çox artıb, büdcə gəlirləri 30 dəfədən çox yüksəlib, valyuta ehtiyatlarımız 68 milyard manat təşkil edir, 310 milyard dollar sərmayə qoyulub, 134 milyardlıq ümumi daxili məhsulumuz var və ən başlıcası isə Azərbaycan bu illər ərzində böyük regional layihələrə imza atıb. Misal olaraq TANAP və TAP layihələrini göstərə bilərik. Eləcə də Azərbaycan artıq Orta Dəhliz seqmentində ən önəmli yerlərdən birini tutur. İlham Əliyev bu dəhlizin iqtisadi səmərəsi ilə bağlı öz töhfəsini verib".

A.Hüseynov bildirib ki, ən böyük qələbə isə Azərbaycanın öz torpaqlarını erməni işğalından azad etməsidir: "Bu böyük, möhtəşəm bir qələbədir. Bu qələbədən sonra Azərbaycanın nüfuzu daha genişləndi. Növbədənkənar prezident seçkilərində işğaldan azad olunan torpaqlarımızda 30 ildən sonra ilk dəfə səsvermə keçiriləcək. Bütün bunların hər biri onu deməyə əsas verir ki, növbəti prezident seçkiləri Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin davam etməsini davam təmin edəcək və bizim nailiyyətlərimiz, uğurlarımız daha da geniş olacaq".

***Rəşid Qarayev***

# Sağlamlıq ocağı, yoxsa xəstəlik mənbəyi?

ARAŞDIRMA

***Gözəl gülüşün sahibi elə gözəl, sağlam dişin yiyəsi sayılır. Sağlam dişlər təkcə estetik cəhətdən üstünlük deyil, həm də onlar həzm sisteminin normal işləməsinə dəstək verir. Qidaların yaxşıca çeynənilməsi mədənin işini asanlaşdırır. Mütəxəssislər hesab edirlər ki, tək bir dişin itirilməsi mədə-bağırsaq xəstəliyinin yaranmasına zəmin yarada bilər. Həyatda qalmaq üçün vacib qida və içkilər qəbul edirik. Zamanla diş ağrısı ilə qarşılaşırıq, bu ağrı hərdən o qədər dözülməz olur ki, ondan təcili canımızı qurtarmağa çalışırıq.***






Nəticədə "32 gözəl"dən biri, ardınca digərləri bizi tərk edir. Hazırda kiminsə rahatlıqla dişinin müalicəsi üçün hansısa klinikaya, ya da diş kabinetinə getməsi də problemə çevrilib. Bunun çox səbəbi var. Pasiyentləri həkim-stomatoloqun peşəkarlığı məsələsi, həkimə inamsızlıq, ən əsas isə həkimin nə dərəcədə təmiz şəraətdə işləməsi narahat edir. Çünki bu gün fəaliyyət göstərən diş kabinetlərin çoxluğu və bəzilərində hökm sürən antigigiyena, antisanitariya, sterilizasiya problemi bu barədə ciddi düşünməyə vadar edir. Bəs, diş klinikalarında hansı xəstəliklərə yoluxa bilərik? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Tibbin bütün sahələrində, xüsusən də stomatologiyada sterilizasiya, tibbi alətlərin təmiz olması vacibdir. Həkimin xəstənin ağız nahiyəsinə ilkin müdaxiləsi - müayinəsi belə ehtiyatla, təmiz həyata keçirilməlidir. Müasir zamanın tələblərinə görə, həkim – stomatoloqun kabinetindəki bütün avadanlıqlar xüsusi məhlulla təmizlənməli ( pasiyentin əyləşdiyi kresloya qədər), həkim müalicə zamanı hər xəstə üçün birdəfəlik tibbi vasitələrdən (əlcək, şpris, ağız yaxalamaq üçün stəkan, müayinə güzgüsü, stomatoloji aparatın ucluqları kimi) istifadə etməlidir. Bundan başqa hər stomatoloji kabinetdə avtoklav adlı xüsusi sterilizasiya aparatları qoyulmalıdır ki, burada da bir çox alətlər hər pasiyentə xidmətdən dərhal sonra 100% mikroblardan təmizlənməlidir. Təəssüf ki, bu gün lisenziya ilə fəaliyyət göstərən kabinetlərin çoxunda müasir avtoklav kimi sterilizasiya cihazları yoxdur. Həkimə bu barədə irad bildirdikdə isə, o alətlərin xüsusi dərmanla silindiyini bildirir.







### Dişimizi hara və kimə etibar edək?

Dişi ağrıyan kəs tez-bazar ondan qurtulmağa çalışır. Onu bu halında həkimin kabineti, buradakı vəziyyət belə maraqlandırmır. Amma yox, bura qədər yazılanlar əbəs deyildi. Bütün hallarda diş həkiminə gedəndə, yaxınlıqdakı kabinetin vəziyyətinə nəzər salmadan keçməyin. Ən əvvəl həkimin əllərinin təmizliyi dəqiqləşdirilməlidir. Sonra stomatoloji güzgü, əlcək, şpris, iri tibbi avadanlıqların ucluqları bir dəfəlik olmalı, istifadə olunacaq müalicə və ya diş çəkilməsində lazım olan kəlbətin, skalpel, elevator diğər alətlərin təmizliyinə riayət olunmalıdır. Bu alətlər avtoklavlar, quru hava sterilizatorda təmizlənir, yeni pasiyent üçün təhlükəsiz istifadə olunur. Bahalı özəl klinikaların stomatoloji kabinetlərində belə bu barədə suallar vermək gərəkdir. Pasiyentlər çox vaxt bahalı xidmətin daha təhlükəsiz olduğunu deyirlər. Amma bu belə deyil. Bəzən oradakı tibb bacısının məsuliyyətsizliyi belə sizin hansısa xəstəliyi qapmanıza səbəb ola bilər.

Bu arada stomaloqların otağında bir nəfər kimi istifadə etməli olduğu avtoklavlar barəsində də bir az məlumat vermək daha doğru olar. Bu aparat 1879-cu ildə Şarl Şamberland tərəfindən ixtira olunub. Bu gün tibdə istifadə olunan avtoklavlar daha da təkmilləşib. Tibbi alət və vasitələrin sterilizasiyasını həyata keçirən bu aparatlar yüksək təzyiq və temperaturla işləyir. Təzyiqsiz olan aparatlar isə quru hava sterilizatoru adlanır. Avtoklavlar həcminə görə fərqlənir. Araşdırmalara görə, avtoklavlar ötən 10 ilə nisbətən bu gün daha geniş istifadə olunur. Həcmi, tutumuna görə qiymətləri də fərqlidir. 16, 18, 22 litrlik avtoklavların qiyməti 1500 -2000 manat arasında dəyişir. Birdəfəlik istifadə olunan kiçik vasitələrin qiyməti isə çox da baha deyil. Sadəcə həkim stomatoloq pasiyentinin sağlamlığını daha vacib hesab edib, qeyd olunan qaydalara əməl etməlidir. Başqa sözlə, hər şey qalır həkimin vicdanına.

Stomatoloq Tural Mehdiyev bildirib ki, adi diş çəkəndə də analiz tələb etmək lazımdır: "Sadəcə bizdə hələ buna pul ödəmək istəmirlər. Yenə də hər şey maddiyyat üzərindədir. Amma biz hər pasiyentlə işləyən zaman elə yanaşırıq ki, sterilizasiya yüksək səviyyədə olsun. Stomatoloji müayinədən öncə viruslara görə analizlərin verilməsinin stomatoloqun qiymətlərinə aidiyyəti yoxdur. Onu pasiyent ayrıca laboratoriyası olan klinikada verir".

### Dişim düzəldi, əvəzinə xəstəlik tapdım...

Tez-tez "Diş həkimləri daha çox xəstəlik yayırlar" iddası səslənir. Bu fikir əbəs yerə deyil. Həm xəstənin, həm də sağlam insanı müalicə edən həkimin işi qəlizdir. Müalicə obyekti isə ağızda yerləşdiyindən hər an həkimin natəmiz əli ilə belə istənilən xəstəliyə yoluxa bilərik. Xəstəliklər arasında xüsusən virus hepatitlərinin adı hallanır. Bu səbəbdən bir daha bu barədə xatırlatma yerinə düşər. Hepatitlər(A,B,C,D,E və az yayılan F,G) əsasən xəstənin qanı ilə sağlam insanın qanı təmasda olanda yoluxdurulur. Ümumiyyətlə, viruslar cinsi yolla, fərdi antigigiyena nəticəsində də ötürülə bilər. Viruslar qanköçürmə əməliyyatlarında daha çox yoluxdurulur. Bütün hepatitlərin hədəflədiyi orqan qaraciyərdir, "məqsəd" onu dağıtmaqdır. Elə "hepatit" də yunancadan "qaraciyər" deməkdir. Ən geniş yayılılan A, B, C viruslarıdır.

Hepatit A - xalq arasında "sarılıq" xəstəliyi kimi də tanınır. Daha çox yoluxucudur. Xəstəlik zamanı qaraciyər böyüyür. Hepatit B - bu zaman da qaraciyər toxumalarında dəyişiklik baş verir. Müalicə olunmadıqda qaraciyər genişlənməsinə qədər fəsadlar meydana gəlir. Hepatit C - bu viruslar içində ən təhlükəlisidir. Virus qaraciyər sirrozuna, qaraciyər çatışmazlığına gətirib çıxarır və ölümlə nəticələnir. Dünyada hər il 50 milyondan çox insan bu virusa yoluxur, 1,5 milyonu isə ölür. Hepatitlərin ümümi əlamətləri – iştəhasızlıq, temperaturun olması, üşütmə, oynaq-əzələ ağrısı, sidiyin rənginin tünd olmasıdır. Vaxtında düzgün müayinə və müalicə isə əsasdır.

### Xəstəlik gizli qalır

Virus hepatitləri orqanizmə daxil olduqda 6 ay ərzində gizli şəkildə yaşayır. Əlamətlər görünmür. Elə vacib məsələ də budur ki, istənilən tibb ocağında, söhbəti gedən diş kabinetində yoluxma baş versə belə bunu stomatoloqa sübut etmək çətindir. Bu kifayət qədər zaman alan müayinələrdən sonra aydın olur. Bu səbəbdən hər pasiyent bu barədə əvvəlcədən tədbirli və ehtiyyatlı olmalıdır.

Dünya ölkələrində belə bir təcrübə var ki, xəstələrin tibb ocaqlarında hər hansı virusa, infeksiyaya yoluxması barədə ciddi, ardıcıl araşdırma və statistika aparılır. Azərbaycanda isə insanların müxtəlif tibbi müdaxilələr zamanı hər hansı xəstəliyə yoluxması gizli qalır. Bu səhiyyə problemləri arasında ən vacib olanıdır. Virus ətraf mühitə qarşı davamsızdır. Tüpürcək, tər, sidiklə yoluxmur.

Qanla ötürülən infeksiyaları bütün pasiyentlərdə aşkarlamaq mümkün olmadığı üçün tibb işçiləri qarşısında bu prinsiplər qoyulur:

- Bütün pasiyentlərə potensial yoluxmuş kimi yanaşmaq, yəni fərqi yoxdur qarşında xəstə ya sağlam adamdır, eyni yanaşmaq lazımdır. Ona görə bütün pasiyentlərin qan və bioloji mayeləri ilə işləmə zamanı təhlükəsizlik tədbirlərinə ciddi əməl olunmalıdır.

-İstifadə olunmuş çirklənmiş bütün alət, ləvazimat, camaşırlar düzgün zərərsizləşdirilməli, dezinfeksiya olunmalıdır.

-Təkrar istifadə olunan alətlərin steril olunması sənədlə təsdiq olunmalıdır. Sənəddə sterilizasiya vaxtı, temperatur və buxarın təzyiqi qeyd olunmalıdır.

-Stomatoloji alət və cihazlar: cərrahi alətlər, diş daşlarını təmizləyən ucluqlar, neştərlər, cərrahi burğular, güzgülər, plomblar üçün ştopferlər, qaşıqlar, burğu maşının ucluqları termik üsulla sterilizə olunmalıdır.

-Yüksək temperatura dözməyən alətlər güclü maddələrlə zərərsizləşdirilməlidir.

-Xəstənin ağız boşluğuna daxil edilən və aspirator ilə birləşdirilən qurğular, su-hava tapançaları manipulyasiyadan sonra 30 saniyə ərzində işlək vəziyyətdə saxlanmalıdır ki, alətdə qalan bioloji material xaric olunsun.

-Stomatoloq və həkimin özünün sağlam olması şərtdir. Onlar vaxtaşırı Hepatit, İİV, vərəm müayinələrindən keçib, işlədiyi yerdə müvafiq sağlamlıq haqda sənədləri saxlamalıdır. Pasiyent həkimin sağlam olmadını dəqiqləşdirmək üçün bu informasiyanı tələb edə bilər. İİV virusu qapalı otaqda, iynədə, qanda, cihazda bir neçə sutka yaşaya bilir. 56 dərəcə temperaturda yalnız 30-35 dəqiqədən sonra ölür.

İdeal təmizlik odur ki, müalicə aparılan otaq hər pasiyentdən sonra təmizlənib, sanitar işlənsin. Xəstənin uzandığı kreslo dezinfeksiya olunmalıdır. Ağız suyu tüpürülən qab təmiz olmalıdır. Ordan vərəm çöpləri keçə bilər. Həkimin əlcəyi, maskası, önlüyü birdəfəlik olmalı, hər pasiyentdən sonra təzələnməlidir.

Hazırda Avropa ölkələri və Rusiyada ekpress testlərdən istifadə olunur. Həkim pasiyentin xəstə olmasından şübhələndikdə OraQuick HCZV adlı testlə xəstənin ağız, damaq suyundan istifadə etməklə onda Hepatit və ya İİV olmasını dəqiqləşdirə bilər. Lakin bu test bir qədər bahalıdır: 25-35 manat arası dəyişir və hər klinikada yoxdur.

***Ləman Sərraf***

# BOYKOT: AXCP-nin çıxış yolu...

***Gələn il fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri AXCP-nin qanını necə qaraltdısa, təcili seçkiləri boykot etmək qərarına gəldi. AXCP nə üçün bu qərara gəldi? Seçkiyə hazır deyilmiş, buna görəmi? Yoxsa daha ciddi məsələlər var?***



Maraqlıdır, 30 il əvvəldən bu günə qədər məqsəd və məramı yalnız ölkədə hakimiyyətə gəlmək olan, bu yolda illərdir, mübarizə aparan, hətta bunun üçün xaricdən də özünə havadar tapan bir partiya necə ola bilər ki, yaranmış belə əlverişli şəraitdən imtina edər? Növbədənkənar seçkiyə hazır deyilmiş guya, ona görəmi? Görəsən seçkiyə hazırlıq necə olur? Bunun üçün AXCP nə edə bilərdi ki, hazır vəziyyətə gələrdi? Namizədliyini irəli sürürsən, qeydiyyata alınırsan, qalan tərəf isə düşür seçicilərin üzərinə, vəssalam. Bu, bizə görə belədir. Bəlkə AXCP bizim kimi düşünmür. Seçkiyə hazırlıq seçici məhəbbəti, rəğbəti qazanmaqdırsa, bu, onlar üçün gecdir. Qaldı məsələnin digər tərəfinə, yəni seçki öz vaxtında keçirilərdisə, bunlar hazır olardılar məsələsinə, vallah, bu da alınan məsələ deyildi. Çünki kənardan min bir əl işləsə də, bülleteni qutuya salan azərbaycanlı əlidir və burada hər hansı bir kənar müdaxilə AXCP xeyrinə ola bilməz.

AXCP seçkilərdən imtina etməsi ilə ən doğru qərarı verdi. Deyərdim ki, son illərdə bu partiyanın verdiyi ən dəyərli qərarlardan birincisidir. Çünki bu qərar həm ağıllı, ətraflı düşünülmüş bir qərar, həm də bəri başdan çıxış yoludur. Bu qərar nəticəni görərəkdən verilən bir qərardır. AXCP əmindir ki, namizədi seçilə bilməz, ona görə də haray bu başdan deyiminə əsasən hərəkət etdi.

Prezident seçkilərinin nə üçün növbədənkənar elan edildiyi hələlik rəsmi şəkildə açıqlanmasa da, onun öz vaxtında deyil, gələn il keçirilməsi nəzərdə tutulsa da, əsas məsələ seçkinin nə zaman keçiriləcəyi deyil, başqa məqamlardır. Yəni, hər zaman seçkiyə hazır olmaq məsələsidir ki, AXCP uzun illərdir ki, buna nail ola bilmədi. Beləliklə də boykot bu partiyanın çıxış yolu oldu.

90-cı illərdən üzübəri yaşanan illər və bu illərə AXCP-Müsavat cütlüyünün "töhfələri" , bütün bunlardan xəbərsiz kimi davranmaları, yeri gələndə günahı özlərində deyil, başqalarında axtarmaları və üstəlik qarayaxmalarla məşğul olmaq, kimlərinsə mənafeyini ölkənin, xalqın mənafeyindən üstün tutmaları hər bir azərbaycanlıya gün kimi aydın olduğundan AXCP arxayın olsun ki, nə gələn il fevralın 7-də, nə də seçkilər öz vaxtında keçirilərdisə, qazana bilməyəcəkdilər.

Xalq 2020-2023-cü illərdə ölkədə iki böyük Zəfəri qeyd etdi. 30 il əvvəl AXCP-Müsavat nümayəndələri ölkədə hakimiyyətdə olduqları illərdə ermənilər tərəfindən işğal olunan torpaqlarımız tamamilə azad edildi. Xalq bu sevinci yaşayarkən o partiyaların heç birini yanında görmədi. Əksinə, onlar bu qələbəyə də özlərinin yeni biçdikləri donu geyindirdilər. Bu isə qələbəni həzm edə bilmədiklərinin göstəricisi idi. Maraqlıdır, onlar torpaqların azad olunmasını istəmirdilərmi? İstəyirdilərsə, nə üçün bu qələbədə əməyi olanların, qəliblərin hər birinə eyni gözlə baxmır, eyni dərəcədə qiymətləndirmirlər? Şəhidləri, qaziləri, milli ordunun əsgərlərini təqdir etdikləri halda, ordunun sərkərdəsini- dövlətimizin başçısını ayrı-ayrı məsələlərdə ittiham edirlər.

Bildiyimiz kimi, hər hansı bir Zəfər sərkərdəsiz əldə oluna bilməz. Hər bir Zəfərə gedən yolda bir sərkərdə, onun rəhbərliyi ilə qazanılan qələbə var. Lakin AXCP ya bu Zəfərlə barışa bilmirdi, ya da havadarlarının, "qranddaşlarının" çaldığı havaya oynayırdı. Nəticədə isə xalq onu gördü ki, AXCP qələbəni onunla birgə yaşamadı, birgə sevinmədi, gülmədi. Əksinə, insanlar Zəfər təntənəsi içərisində olduqları vaxtda AXCP sədri yeni bir mövzu atdı ortaya: torpaqlar nə üçün 20 il əvvəl deyil, 20 il sonra azad edildi. Bu söhbəti gündəmə gətirməyə üz lazım idi ki, onu partiyanın rəhbəri Əli Kərimlidə gördük. O özü başda olmaqla partiya üzvlərindən heç biri torpaqların nə üçün işğal olunduğu məsələsini illərlə müzakirə mövzusuna çevirmədi. Çünki bu, onlara sərf edən tərəf deyildi.

Qaldı 20 il əvvəl və 20 il sonra məsələsinə, bunun səbəblərini Əli Kərimli hamıdan gözəl bilir. Lakin nə etməli ki, o, müzakirə mövzusu olaraq bunu seçmişdi. 20 il əvvələ gəlincə, həmin vaxt dövlət hansı iqtisadi vəziyyətlə müharibə edə bilərdi? Hansı ordu ilə düşmən qarşısına çıxara bilərdi? 90-cı illərdə olanları yenidən yaşamaq idimi bunu iddia edənlərin məqsədi? Yoxsa onlar müharibə haqqında ən elementar biliklərə belə malik deyillər?

AXCP seçkiləri boykot etməklə, yenə də yuxarıdakı fikrimizə qayıtmaqla demək istəyirik ki, bunu özünə çıxış yolu seçdi. Yəni AXCP-nin seçkidən çəkilməsi o demək deyil ki, bu, seçkiyə mənfi bir təsir göstərə bilər. Onsuz da xalq öz seçimini edib və bunu Vətən müharibəsindən sonra dəfələrlə bəyan edib ki, cənab İlham Əliyev xalqın əbədi prezidentidir. Yəni xalqın bu iradəsi qarşısında Əli Kərimli və partiyası və ya digər AXCP-yə bənzər partiyalar nə edə bilər ki?

Prezidenti xalq seçir. Xalqın da istəyi məlumdur. Baxmayaraq ki, Əli Kərimli və həmkarları yenə də ağızlarını qoyub Allah yoluna, danışırlar. Lakin ataların belə bir deyimi də var: pişiyin əli ətə çatmayanda, murdardır, deyər.

Beləliklə, bu qənaətə gəlmək olar ki, Əli Kərimli artıq hakimiyyətdən əl götürdü. Ən sonda papağını qarşısına qoyub fikirləşə bildi ki, hakimiyyətə gəlmək onun alın yazısı deyil. Qarabağ Zəfərindən sonra, konstitusiya quruluşumuzun, ərazi bütövlüyümüzün bərpasından sonra isə bu, əsla düşünüləcək bir məsələ deyil. Odur ki, seçkidən çəkildi. Və özü çəkiləndən sonra isə başlayıb başqalarını bunu etmək üçün çağırışa. Lakin xalq öz seçimini edib. O, öz müzəffər Liderinin yanındadır. 30 illik həsrətə son qoyan, qaçqın-köçkününün üzünü güldürən, soydaşlarımıza ata-baba torpaqlarını yenidən bəxş edən, xalqa torpağının şərəfini qaytaran Liderinin yanındadır və növbəti seçkidə də səsvermə məntəqələrində öz fikirlərini ifadə edəcəklər. Bunu AXCP və "qranddaşları" kənardan ürək yanğısı ilə seyr etsələr də...

***Mətanət Məmmədova***

# "Torpaqlarımız işğaldan azad olunmasaydı,... "



MÖVQE

"İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, o cümlədən keçmiş məcburi köçkünlərin öz yurdlarına qaytarılması dövlətimizin əsas prioritetlərindədir". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib. Deputat sözlərinə belə davam edib: "Bu məqsədlə 2022-2026-cı illəri əhatə edən Böyük Qayıdışa dair Dövlət Proqramı qəbul edilərək uğurla icra olunmaqdadır. Müharibənin başa çatmasından keçən qısa zaman kəsiyində Ağalı, Laçın, Zabux, Sus və Füzuli öz sakinlərini qəbul etməkdə davam edir.

Digər yaşayış məntəqələrin tikintisi də sürətlə aparılır. Yenidən tikilib bərpa edilən bütün yaşayış məntəqələri çox yüksək standartlara uyğun ərsəyə gəlir və öz ata yurdlarına qayıdan keçmiş məcburi köçkünlər yaradılan şəraitdən çox məmnundurlar. O cümlədən öz doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərin işlə təminatı məsələləri də qabaqcadan həll olunur. Beləliklə 2026-cı ilə qədər 140 min keçmiş məcburi köçkünün qaydışını, həm də 100-ə yaxın yaşayış məntəqəsinin yenidən qurulması təmin ediləcəkdir. Bu gün öz yurdlarına qayıdan hər bir keçmiş məcburi köçkün onlar üçün yaratdığı yüksək şəraitə görə ölkə başçısına öz minnətdarlıqlarını bildirirlər. Bu qayıdışın həyata keçirilməsi üçün torpaqlarını işğaldan azad etmiş Ali Baş Komandana və əsgər-zabitlərimizə minnətdatdırlar. Çünki, torpaqlarımız işğaldan azad olunmasaydı bu gün Böyük Qayıdışdan danışa bilməzdik.




Azərbaycan dünyada çox az ölkələrdəndir ki, müharibədə qalib gəldi və müharibəni başa çatdırandan sonra işğaldan azad olunmuş ərazilərində dərhal yenidənqurma və bərpa işlərinə başlanıldı. Əgər ölkəmizin yetərli iqtisadi gücü olmasaydı nə torpaqımızı işğaldan azad edə bilərdik, nə də qayıdışımızı təmin edə bilməzdik. Bu gün Azərbaycan hətrtərəfli inkişaf edir. 30 il ermənilərin viran qoyduğu torpaqlara da yenidən həyat qaytarılır, həm də bütün Azərbaycanın inkişafı təmin edilir. Bu uğurların müəllifi ancaq Prezident İlham Əliyevdir".

***Ayşən Vəli***




# "Nar" Qarabağda şəbəkə əhatəsini genişləndirir

"Nar" Qarabağ iqtisadi zonasının bütün şəhərlərində şəbəkə xidmətlərinin genişləndirilməsini davam etdirir. Bu təşəbbüs "Nar"-ın regionlarda abunəçilərə kəsintisiz və sərfəli mobil xidmətlər təqdim etmək öhdəliyini nümayiş etdirir. Ümumilikdə, "Nar" Qarabağ iqtisadi zonasında 100-dən çox baza stansiyasını uğurla inşa edərək istismara verib. Bununla da, Şuşa, Xankəndi, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın, Xocavənd, Füzuli, Tərtər və Ağdam abunəçiləri üçün etibarlı şəbəkə əhatəsindən faydalanmanı təmin edib. Həmçinin, "Nar" Laçın şəhərində satış və xidmət mağazasını təqdim edən ilk mobil operator olub.

Geniş şəbəkə infrastrukturunun inkişafı çərçivəsində "Nar" 2023-cü ildə önəmli nailiyyətlər əldə edib. Mobil operator hazırda ölkə üzrə 98,5% ərazi, 99,71% əhali əhatəsi ilə artan abunəçi bazasına sərfəli və yüksək keyfiyyətli mobil xidmətlər təqdim etməyə davam edir. 2024-cü ildə "Nar" öz şəbəkə infrastrukturunu daha da gücləndirmək planı çərçivəsində Qarabağ iqtisadi zonasının müxtəlif qəsəbə və kəndləri də daxil olmaqla, bütün ölkə ərazisində baza stansiyası inşasını davam etdirməyi və abunəçiləri üçün daha əhatəli və etibarlı mobil təcrübə təmin etməyi planlaşdırır.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Ermənistan üçün Qarabağ məsələsi bitməyib?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***



***Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan Polşanın baş naziri seçilməsi münasibətilə Donald Tuska təbrik məktubu göndərib. Mətndə nəinki Polşa siyasətçisi arasında çaşqınlığa səbəb ola biləcək gözlənilməz bir keçid olmasaydı, hər şey yaxşı olardı.***

## Əcnəbi ekspertlər şərh etdi



Giriş təbrikindən sonra qəfildən aşağıdakı sözlər gəlir: "...Sizə 17 oktyabr 2020-ci il tarixində yazdığım sonuncu məktubum Avropada tanınmış aparıcı siyasətçi kimi ictimai və qeyri-ictimai müdaxilənizlə bağlı xahişim oldu. Erməni xalqını Vətənimin bir hissəsində- Dağlıq Qarabağda məhv olmaqdan xilas etməklə bağlı. Təəssüf ki, qabaqcadan gördüyüm böyük faciə baş verdi: 21-ci əsrdə sivil bəşəriyyətin gözü qarşısında Qarabağdakı erməni xalqı Azərbaycan tərəfindən etnik təmizləməyə məruz qaldı və bu da ermənifobiyanı dövlət siyasətinə çevirdi. Yüz əlli min ermənidən heç biri öz evində qalmadı. Amma bizim fikrimizcə, problem həll olunmayıb- sadəcə olaraq, belə həll oluna bilməz və Ermənistan Qarabağının səhifəsi bağlanmayıb". Sonra yenə təbriklər və arzular gəlir.

Açıq desək, Sarkisyanın bu qəribə şikayəti ilə Tuskdan nəyə nail olmağa çalışdığı o qədər də aydın deyil. Yəni, Tusk neyləsin, Azərbaycana müharibə elan etsin?

Eyni zamanda, onun əvvəlki hökumətdəki yaxın müttəfiqi, keçmiş müdafiə naziri, hazırda "Ermənistan" müxalifət blokunun parlament fraksiyasının rəhbəri Seyran Ohanyan da Milli Assambleyada keçirdiyi brifinqdə fərqlənib. Dekabrın 13-də o da "Qarabağ münaqişəsi bitməyib" dedi. Onun sözlərinə görə, "Dağlıq Qarabağ regionda faktor olub və subyektivliyi qorumaq üçün, o cümlədən Qarabağ ermənilərinin öz tarixi vətənlərinə qayıtmasına şərait yaratmaq üçün onun bütün institutları mövcud olmağa davam etməlidir".

Xeyr, heç kim Qarabağ ermənilərinin qaytarılması ilə bağlı mübahisə etmir, üstəlik, rəsmi Bakı Yerevandan fərqli olaraq, onları buna çağırır. Bəs istefada olan nazir hansı məqsədlə "Qarabağ münaqişəsinin bitmədiyini" bəyan edir? Sarkisyan və Ohanyanın bu çıxışlarının arxasında nə dayanır? Axı onlar başa düşə bilmirlər ki, belə vəziyyətdə heç kim Azərbaycana qarşı heç nə etməyəcək? Üstəlik, bunun üçün heç bir əsas yoxdur.







Məsələ ilə bağlı tanınmış xarici ekspertlər "Caliber" analitik mərkəzinə fikirlərini bölüşüblər. Ekspertlərin şərhini oxucularımıza təqdim edirik.

Polşalı politoloq, Varşava Universitetinin şərqşünaslıq fakültəsinin elmlər doktoru Konrad Zaştovtun qeyd etdiyi kimi, suallar çox maraqlıdır.

"Düşünürəm ki, Tusk və Sarkisyanın keçmiş Polşanın baş naziri, sonuncunun isə Ermənistan prezidenti olduğu dövrlərdən əlaqələri var. Yəni 10-12 il əvvəl. Tusk daha sonra Ermənistana səfər edib",- o xatırladıb.

Amma hələ də qəribədir ki, "Qarabağ klanı" adlandırılan siyasətçi Sarkisyan Polşa ilə əlaqələrdən istifadə etməyə çalışır,- Zaştovt çaşqındır.

"Sarkisyan və Köçəryan həmişə Rusiyayönlü siyasətçi olublar. Lakin hazırda Polşanın yeni hökuməti var, onun üçün Cənubi Qafqaz xarici siyasətdə prioritet deyil. Baxmayaraq ki, çox güman ki, Varşavanın Ermənistanın hazırkı hakimiyyəti ilə, yəni Paşinyanla yaxşı münasibətlər saxlayacağını gözləmək olar", - şərqşünas hesab edir.

Polşalı analitik, Torun Nikolay Kopernik Universitetinin Siyasi Elmlər və Beynəlxalq Tədqiqatlar Fakültəsinin professoru Roman Bakker öz növbəsində bildirib ki, onların ölkəsində yeni hökumət yalnız bir gün əvvəl formalaşıb, ona görə də Polşanın xarici siyasətinin təfərrüatları məlum deyil. "Hazırda Polşa üçün ən vacib məsələlər Avropa İttifaqı və Ukrayna ilə münasibətlərdir. Mən gözləmirəm ki, hakim koalisiyanın başqa məsələlərlə məşğul olmaq üçün vaxtı olacaq",- deyə o, Sarkisyanın müraciətinə istinadən qeyd edib.

Kiyev Yaxın Şərq Araşdırmaları Mərkəzinin icraçı direktoru İqor Semivolosun sözlərinə görə, Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın Donald Tuska daha əvvəl, onun Avropa Şurasının sədri olduğu dövrdə də müraciət etdiyi açıq-aydın görünür.

"Bu müraciətdə sadəcə təklif olub, yoxsa ən azı kiməsə çatması üçün ümidsiz cəhd olub-olmadığını söyləmək çətindir. Lakin, təbii ki, Sarkisyan üçün həmin yazışma faktı əhəmiyyətli görünürdü və o, bunu xatırlatmaq qərarına gəlib. Amma o vaxtlar keçmişdir. O vaxtdan bəri çox şey baş verib- Qarabağ münaqişəsi başa çatıb, ölkələr sülh və sərhədlərlə bağlı birbaşa danışıqlar aparır",- ekspert qeyd edib.

Eyni zamanda o, Polşanın hazırkı baş nazirinin Qarabağ məsələsindən başqa işi olduğuna da əmindir. Üstəlik, Ermənistanda və Azərbaycanda Donald Tuskun lazım gələrsə, əlaqə saxlaya biləcəyi legitim hökumət var.

"Beləliklə, Polşa, əksər Mərkəzi Avropa dövlətlərindən fərqli olaraq, həqiqətən şərq siyasətinə malikdir və digər məsələlərlə yanaşı, Cənubi Qafqaz da onun xüsusi diqqət mərkəzindədir. Hörmətli Polşa baş nazirinin yerinə cavab verə bilmərəm, amma nədənsə əminəm ki, bu məktuba hipotetik cavabda o, keçmiş və indiki Ermənistan hakimiyyətinə Rusiyanın təsirindən mümkün qədər tez qurtulmağı tövsiyə edə bilər",- Semivolos yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
19 dekabr
2023-cü il

# Hicablı qadının baş örtüyünü açmasının hansı günahları var?



AÇIQLANDI

"Allah bizə günahların və savabların nə dərəcədə tanınmasını müqəddəs Qurani-Kərimdə, öz ayələrində açıq şəkildə göstərir". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev deyib. Onun sözlərinə görə, hicab geyim forması deməkdir və qadınlara məxsusdur: "Yəni, İslamda qadının necə örtünməsi, geyinməsi tələb olunursa, ona qadının hicabı deyilir.

Təsəvvür edin ki, qadın o geyim formasına riayət etməlidir, etməsə, günahdır. Əgər əvvəl riayət edibsə, sonra o geyimi (hicabı) tərk edirsə, əlbəttə, günah bir qat yox, iki qat çoxala bilər. Amma nə dərəcədə və necə olmasını Allah bilər. Biz onu bilmərik. Bunun üçün də Allahın əmrlərini icra etmək lazımdır. İcra etməsək, günah olur. İcra edib sonra o əməli tərk edir, onu pozursansa, deməli, insan Allaha qarşı çıxmış olur. Bir var o əmri icra etmir, özünü günahkar bilir.

Məsələn, namaz qılmağa başlayır. Namaz qılandan sonra yenidən bu namazı tərk edir. Bu zaman günah iki qat çoxala bilər. Bunun üçün də insanlara tövsiyəmiz budur ki, Allahın əmrlərinə və peyğəmbərimizin buyurduqlarına əməl etsinlər. Nə qədər əməl etsələr, həyatları da, rifahları da gözəl olar. Qəlbləri də rahat olar. Allah bizi günahlardan uzaq etsin. Amin".

*Ayşən Vəli*

# Gələn il ölkəmizdə velosiped və skuter sürənlərin sayı çoxalacaq



Növbəti ildə yeni marşrut xəttinin tətbiqinə başlanılacaq və bunun üçün pilot zona müəyyənləşəcək. Bundan başqa, növbəti ildə sərnişin daşımalarında daşıyıcılarda yeni maliyyə modelin pilot layihəsi tətbiq ediləcək. SİA-nın xəbərinə görə, bunu Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə heyətinin sədri Anar Rzayev Azərbaycanda mobilliyin transformasiyası proqramının təqdimatı zamanı deyib.

O bildirib ki, növbəti ildə həmçinin bir sıra infrastruktur layihələrin icrasına başlanılacaq: "2024-cü ildə şəhər "darboğazlarının" həll edilməsi üçün infrastruktur layihələrinin icrasına başlanılacaq və hərəkətin yenidən təşkili layihələri icra ediləcək". "Bundan başqa, növbəti ildə taksi xidmətlərinin keyfiyyəti artırılacaq, velosiped və skuter istifadəsi daha da genişləndiriləcək", - deyə o əlavə edib.

# Bakıda taksilərin 60 faizinin yaşı 15 ildən çoxdur




Bakıda taksilərin 60 faizinin yaşı 15 ildən çoxdur. SİA-nın xəbərinə görə, bunu Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə heyətinin sədri Anar Rzayev Azərbaycanda mobilliyin transformasiyası proqramının təqdimatı zamanı deyib.

O bildirib ki, Bakıda yaşı 5 ilə qədər olan taksilər 7 faiz təşkil edir: "Hazırda paytaxtda yaşı 5-10 il olan taksilər 10 faiz, 10-15 il olanlar isə 21 faiz təşkil edir". "Yaşı 15-20 il olan taksilər 42 faiz, yaşı 20 ildən çox olan taksilər isə 20 faiz təşkil edir", - deyə o əlavə edib.

## ELAN

**Dövlət Sərhəd Xidməti tərəfindən Fətullayev Nurislam Kamran oğlunun adına verilmiş 0001235 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.**

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# XƏBƏRDARLIQ: "Bu mənzillər 3 il ərzində satıla bilməz"

***"MİDA-nın 16 dekabrda keçirdiyi satış zamanı mənzillər yenə də saniyələr içərisində satılıb. Tələb doğrudan da yüksəkdir". Bunu SİA-ya açıqlamasında əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə deyib.***



EKSPERT

Onun sözlərinə görə, MİDA-nın həyata keçirdiyi satışlarda on minlərlə insan bir neçə yüz mənzil uğrunda mübarizə aparır: "Təbii ki, yüksək internet resurslarına malik olan şəxslər daha qabağa düşə bilirlər. Budəfəki satış zamanı hansısa neqativ haldan söhbət gedə bilməz. Ötən dəfələrdə Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən bu kimi halların qarşısı alındı və bu halları törədənlər cəzalandırıldı. Amma budəfəki satış sırf vətəndaşların ev uğrunda mübarizəsi idi. Bir neçə saniyə ərzində başa çatması o deməkdir ki, ev almağa hazırlaşan vətəndaşlar çalışırdılar ki, qısa bir müddətdə əldə edə bilsinlər. Hətta deyərdim ki, bəziləri mənzilləri tez bir müddətdə əldə etmək üçün əvvəlcədən hazırlaşmışdı. Əvvəlki təcrübəli olanlar yüksək internet resursu olan kompüter vasitəsilə mənzilləri əldə etmək üçün hazırlıq görmüşdü".

Ekspert mənzil satışlarında xüsusi proqramların istifadə edildiyinə inanmadığını bildirib: "Çünki qeyd etdiyim kimi əvvəllər mövcud olan bu kimi halların qarşısı DTX tərəfindən alınıb. Sadəcə saytın özünün də birdən-birə ləngiməsi onunla bağlıdır ki, dəfələrlə yüklənmə olur. Təsəvvür edin bəlkə də yüz minlərlə insan müraciət edir".

R.Qasımzadə qeyd edib ki, bu satışın həyata keçirilməsi hələ o demək deyil ki, vətəndaşlar mənzili alıb: "Ola bilər ki, vətəndaşlar mənzili geri qaytarsın. Məsələn bəzən mərtəbəsi, bəzən ev özü vətəndaşın müəyyən qədər xoşuna gəlmir və onu qaytarmalı olurlar. Təbii ki, bu bazar dəyərindən xeyli ucuzdur deyə vətəndaşlar bunu əldə etməyə çalışırlar".

Ekspert sonda deyib ki, müəyyən informasiyalar var ki, insanlar bu mənzilləri alıb sonra da satırlar: "MİDA buna məhdudiyyət qoyub, üç il ərzində bu evlər satıla bilməz. Amma bəzi şəxslər müəyyən etibarnamə əsasında da satışa çıxarır, ucuz alıb baha satmağa çalışırlar. Hesab edirəm ki, bu kimi halların da qarşısı alınmalıdır. Çoxu etibarnamə ilə bunu edir, üç ildən sonra satışını icra edirlər".

*Rəşid Qarayev*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**